QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 171 (5643) **12 sentyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# Azərbaycan-Rusiya münasibətləri keyfiyyətcə yeni mərhələdə

*Soçidə imzalanan sənədlər Azərbaycan-Rusiya münasibətlərinin yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilir*



Səh 2

**Yeni inkişaf mərhələsinə qədəm qoyan pambıqçılıq sahəsi mühüm önəm kəsb edir** 4

**Bakıda "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib** 3

**Azərbaycan və Ermənistanın XİN başçıları yaxın vaxtlarda görüşəcək** 5

**Paşinyanın Rusiyaya səfəri barədə ümidləri puça çıxdı** 8

**"Kommersant"ın müxbiri erməni baş nazirini ələ salıb** 10

**Araik Harutyunyan: "Ermənistanın təhsil sahəsində ciddi problemlər var"** 10

12 **İşıq pulunu ödəmək daha ASAN oldu!**

14 **Müxalifətin "xaç anası"ndan Əli Kərimliyə irad**

16 **Millətlər Liqası: Türkiyə millisindən əzmkar qələbə!**




















# Azərbaycan-Rusiya münasibətləri keyfiyyətcə yeni mərhələdə

*Soçidə imzalanan sənədlər Azərbaycan-Rusiya münasibətlərinin yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilir*



## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycanda dini icmaların maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Azərbaycanda dini icmaların maddi-texniki təchizatının yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 400 min manat ayrılsın. Maliyyə Nazirliyinə tapşırılır ki, Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***

Prezident İlham Əliyev Sabirabad rayonunun Dadaşbəyli-Çöl Ağaməmmədli-Xankeçən-Salmanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, iyirmi iki min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Dadaşbəyli-Çöl Ağaməmmədli-Xankeçən-Salmanlı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 15,1 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın. Maliyyə Nazirliyinə Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

***Prezident İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində imzalanan sazişlər iki ölkə arasında münasibətlərin bundan sonrakı dövrü üçün əsas yol xəritəsi hesab olunur. Sözügedən səfər çərçivəsində imzalanan sənədlər Azərbaycan-Rusiya münasibətlərinin yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilir.***

Bu günədək hər iki dövlət arasında həm siyasi, həm də iqtisadi-ticarət əlaqələri sıx olub və yüksələn xətlə inkişaf edib. Təbii ki, bundan sonrakı mərhələdə iqtisadi sahədə birgə fəaliyyət imkanlarının daha da genişləndiriləcəyi ehtimal olunur. Prezident İlham Əliyev Soçidə Rusiya Prezidenti Vladimir Putinlə birgə mətbuata verdiyi bəyanatında bir sıra məsələlərə toxunub.

Prezident İlham Əliyev qeyd edib ki, Rusiya və Azərbaycan qonşu dövlətlərdir: "Bizi həm dəmir yolları, həm avtomobil yolları, həm də çox fəal sərnişin və yükdaşımaları üçün hava yolları birləşdirir. Biz ölkələrimiz, eləcə də, qonşularımız üçün yeni nəqliyyat imkanları yaradılması üzrə gələcək addımlarımızı ətraflı müzakirə etdik. Azərbaycan da, öz tərəfindən, ölkə ərazisində bu istiqamətdə bütün mühüm infrastruktur layihələrini həyata keçirib. Bu il "Şimal-Cənub" Nəqliyyat Dəhlizi ilə keçən illə müqayisədə 100 dəfə çox yük daşınıb. Bu, hələ başlanğıcdır, çünki bu genişmiqyaslı qlobal layihə çoxsaylı ölkələri və qitələri əhatə edəcək. Beləliklə, ölkələrimizin tranzit imkanları artacaq, minlərlə yeni iş yeri yaradılacaq".

Rusiya prezidenti Vladimir Putin də bildirib ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Dövlətlərimizin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır: "2017-ci ilin yekununa görə, Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsi, demək olar ki, 35 faiz artaraq, 2,5 milyard dollara çatıb. Rusiyanın Azərbaycana birbaşa kapital qoyuluşu 1,5 milyard dollar təşkil edib. Azərbaycan bazarında təxminən 700 birgə müəssisə, onlardan da üçdə biri 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir. Sahibkarlıq birlikləri arasında, o cümlədən, kiçik və orta biznes xətti ilə əlaqələr genişlənir. Rusiya-Azərbaycan İşgüzar Şurası təkcə ötən il ümumi dəyəri 450 milyon dollar olan 42 birgə layihəyə dəstək göstərib. Azərbaycanda Rusiyanın bir çox enerji şirkətləri uğurla işləyir. Bunlar "Qazprom", "Transneft" və "Lukoyl"dur. Ümumiyyətlə, Rusiyanın və Azərbaycanın enerji sistemləri inteqrasiya rejimində fəaliyyət göstərir. Sənaye sahəsində kooperasiya dərinləşir".

Təbii ki, Rusiya ilə Azərbaycan arasında qonşu ölkələr üçün nəqliyyat imkanlarının yaradılması istiqamətində əməkdaşlığın böyük perspektivləri var. Azərbaycan Rusiya ilə birgə "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin iştirakçısıdır. Məlumdur ki, "Şimal-Cənub" Nəqliyyat Dəhlizi Avropanın şimal hissəsindən başlayaraq, Asiyanın şərq hissəsinə qədər davam edir. Bu səbəbdən də, hər iki ölkə arasında nəqliyyat əməkdaşlığı yüklərin daha qısa müddətə və ucuz daşınması sahəsində əməkdaşlığı daha da genişləndirəcək. Rusiya ilə İran, Türkiyə və Şərq ölkələri arasında yükdaşımaların Azərbaycanda yaradılmış yeni infrastruktur vasitəsilə daşınması birbaşa Şimal qonşumuzun özünün iqtisadi marağındadır. Çünki bu yol daha rahat, müasir və bir çox ölkələrdən keçdiyindən, əlavə dəyər yaradan marşrutdur. Bu səbəbdən də, Rusiya bu marşrutdan istifadə etməkdə maraqlıdır. Təbii ki, Azərbaycan da tranzit ölkə kimi yüklərin bu və ya digər istiqamətdə daşınmasında maraqlıdır. Bundan ölkəmiz kifayət qədər gəlir əldə edir. Eyni zamanda, iqtisadiyyatda qeyri-neft sektorunun inkişafı baxımından, nəqliyyat əlaqələrinin genişlənməsi və yüklərin daşınmasında yeni əlavə dəyərin yaradılması ölkəmizə böyük perspektiv vəd edir.

Prezident İlham Əliyevin Rusiyaya səfəri çərçivəsində nəqliyyat məsələsinə toxunan Rusiya Prezidenti Vladimir Putin qeyd etmişdi ki, Qərbi Avropa bazarlarını Asiya istehsalçıları ilə birləşdirəcək Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılmasını ən perspektivli layihələrdən biri hesab edirik: "Bu dəhliz Cənubi Asiya və Yaxın Şərqdən İran vasitəsilə Avropaya yük daşımalarını xeyli sürətləndirməyə imkan verəcək. Bu arteriyanın ümumi uzunluğu 7 min kilometrdən artıqdır. Buraya dəmir yolu, bərə və avtomobil nəqliyyatı yolları daxildir. Həm də Şimal-Cənub Dəhlizinin xeyli hissəsi Rusiya və Azərbaycan ərazisindən keçəcək. Qeyd edim ki, marşrutun ayrı-ayrı hissələri üzrə iş artıq aparılır. Gələn il ölkələrimiz Samur sərhəd çayı üzərindən körpünün tikintisini başa çatdırmaq niyyətindədir".

Göründüyü kimi, Azərbaycan Cənubi Qafqazda Nəqliyyat Dəhlizi rolunu oynayır. Bu istiqamətdə Azərbaycan hökuməti, uzun illərdir ki, çox böyük işlər görüb. Müvafiq investisiyalar yatırılır, layihələr həyata keçirilir. Azərbaycanda nəqliyyat infrastrukturu tamamilə yenidən qurulub. Dəmir yolları genişləndirilir, Bakı-Tbilisi-Qars Dəmir Yolu layihəsi ötən il istifadəyə verildi. Azərbaycan həm Şimal-Cənub, həm də Şərq-Qərb istiqamətində nəqliyyat qovşağında yerləşir. Ölkəmiz hazırda regionun nəqliyyat mərkəzinə çevrilir. Belə bir vəziyyətdə ətraf ölkələrin hər biri ilə nəqliyyat sahəsində müvafiq razılaşmaların əldə edilməsi və sazişlərin imzalanması böyük perspektiv vəd edir.

***"Səs" Analitik Qrupu***






# Bakıda “Dini mərasimlər: ənənəvilik və müasirlik” mövzusunda seminar-müşavirə keçirilib

***Sentyabrın 11-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yasamal Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə “Dini mərasimlər: ənənəvilik və müasirlik” mövzusunda seminar-müşavirə keçirilib. Tədbirdə DQİDK-nın, RİH-in rəhbər şəxsləri, millət vəkilləri, dini icma sədrləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.***

AZƏRTAC xəbər verir ki, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov konfransda çıxış edərək bu cür maarifləndirici tədbirlərin keçirilməsinin əhəmiyyətini bildirib. Milli mənəvi dəyərlərimizin, adət-ənənələrimizin xalqımızın tarixində, özünüdərkində mühüm əhəmiyyət daşıdığını, azərbaycançılıq ideologiyasının əsas tərkib hissələrindən biri olduğunu qeyd edən Ə.Əzizov deyib ki, ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə milli mənəvi dəyərlərimizin qorunub saxlanmasına və inkişafına çox böyük önəm verib. Prezident İlham Əliyevin həyata keçirdiyi tədbirlər əsası Ulu Öndər tərəfindən qoyulmuş tolerantlıq siyasətinin daha da möhkəmlənməsi kursunun davamıdır.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransın əhəmiyyətindən və ölkəmizdəki dövlət-din münasibətlərindən danışıb. O qeyd edib ki, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi ideoloji prinsiplərin ana xəttini milli mənəvi dəyərlərimizə söykənən azərbaycançılıq təşkil edir: “Eyni zamanda, Azərbaycan əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil etdiyi üçün mənəvi dəyərlərimizin tərkib hissəsi olan İslamı yad təsirlərdən qorumalıyıq. Əsrlərin süzgəcindən keçərək müasir dövrümüzədək qoruyub saxladığımız milli mənəvi, dini adət-ənənələrimizi yaşatmalı və onu düzgün şəkildə insanlara çatdırmalıyıq. Din sahəsində ideoloji cəhətdən boşluq yaranmasına imkan verməməliyik. Buna görə də Dövlət Komitəsinin bu maarifləndirici tədbirləri gələcəkdə də davam etdiriləcək”.

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov çıxış edərək dinə dövlət qayğısından, dövlət-din münasibətlərindən danışıb. O bildirib ki, Azərbaycan dünyəvi dövlətdir və ölkəmizdə din dövlətdən ayrı olsa da dövlət daim dini sahəyə, inanclı insanlara xüsusi diqqət və qayğı ilə yanaşır. Dövlət başçısı mütəmadi olaraq din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir, dini ibadət yerləri təmir-bərpa olunub inanclı insanların istifadəsinə verilir: “Ölkəmizdə bütün vətəndaşların dini etiqad azadlığı qanunvericiliklə tam təmin olunur. İslam dininin, dini adət və mərasimlərin olduğu kimi insanlara çatdırılması maarifləndirmə tədbirlərinin əsas qayəsidir. Bu sahədə görülən işlər təqdirəlayiqdir və davam etdirilməlidir”.

Müzakirələr zamanı Məhərrəm ayında keçirilən dini mərasimlərin, o cümlədən “Aşura” mərasiminin icrası zamanı qanunvericiliyin tələblərinə və Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının fətvasında qeyd olunan tövsiyələrə əməl olunmasının vacibliyi vurğulanıb. Seminar-müşavirənin sonunda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# “Orfoqrafiya Komissiyasının qərarı dilçilik elminin inkişafına xidmət edəcək”

“Azərbaycan dilinin Orfoqrafiya qaydalarına nəzərdə tutulan dəyişikliklərlə əlaqədar yekun iclasın keçirilməməsi yalnız Orfoqrafiya Komissiyası üzvlərinin iyun-avqust aylarında yay tətilində olması ilə əlaqədardır. Artıq Komissiya üzvlərinin əksəriyyəti iş başındadır. Bu günlərdə Orfoqrafiya Komissiyasının iclasında Orfoqrafiya qaydaları müzakirəyə çıxarılacaq və bu məsələyə yekun vurulacaq”. Bu fikirləri SİA-ya Ofoqrafiya Komissiyasının sədr müavini, AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli deyib.

O bildirib ki, hələlik qaydalarla əlaqədar komissiya iclasının keçirilmədiyi, müzakirələrin aparılmadığı və hər hansı bir qərarın qəbul edilmədiyi halda mətbuat vasitəsilə cəmiyyətdə bu barədə ajotaj xarakterli rəylər yaratmaq, narahatlıq ifadə etmək halları obyektiv reallıqları ifadə etmir, bəzi hallarda hətta təzyiq kimi səslənir.

Onun sözlərinə görə, Azərbaycan Respublikası Dövlət Dil Komissiyasına edilmiş müraciətdə ifadə olunan fikirlər, irəli sürülən təfliklər Orfoqrafiya Komissiyasında ölkəmizin nüfuzlu dilçi alimləri tərəfindən diqqətlə nəzərdən keçiriləcək və qərarların qəbul edilməsi zamanı ictimai rəy də əsas arqumentlərdən biri kimi nəzərə alınacaq: “Çünki Orfoqrafiya Komissiyasında yaxşı başa düşülür ki, Azərbaycan dili təkcə elm adamlarının, yaxud dilçi alimlərin deyil, bütövlükdə Azərbaycan xalqının milli sərvətidir. Müraciətdə bir neçə dəfə “xüsusilə 37-ci maddə” formatında vurğulanmış mülahizələrdəki narahatlığın səbəbləri bəlli olsa da, ümumiyyətlə “Qaydalar”dakı bəzi müddəalarının hələlik vaxtı çatmamış və ya Azərbaycan dilinin qrammatikasında ikili münasibət doğuran hallar kimi nəzərdən keçirilməsi tələb olunur”.

İ. Həbibəyli söyləyib ki, dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan dilinin Orfoqrafiya qaydaları üçün əsas prinsip - azərbaycançılıq təlimidir: “Azərbaycan dilinin orfoqrafiya qaydaları” adlanan layihədə başqa meyllər axtarmaq tam məntiqsizdir, süni şəkildə çaşqınlıq yaratmaq məqsədi daşıyır.Bütövlükdə 2018-ci ildə Orfoqrafiya qaydaları ətrafında aparılmış səkkiz aydan çox davam edən müzakirələr geniş mənada ictimai və humanitar elmlərin, xüsusən də dilçilik elminin inkişafı üçün faydalıdır. Elm tariximizdə bu qədər aktiv, ardıcıl, cəmiyyətin ən müxtəlif təbəqələrinin nümayəndələrinin yaxından iştirak etdiyi müzakirələr nadir hallarda baş vermişdir. Bu, müstəqillik qazanmış ölkəmizdə dövlət dilinə - ana dilinə olan böyük marağın, milli təəssübkeşliyin, vətəndaşlıq missiyasının aydın təzahürüdür. Orfoqrafiya Komissiyası qarşısında duran vəzifənin məsuliyyətini dərindən başa düşür, bu məsul işlə əlaqədar fikir və mülahizələrini bildirmiş bütün şəxslərə dərin hörmət və ehtiramını bildirir. Heç şübhə ola bilməz ki, qəbul ediləcək qərarlar da ilk növbədə Azərbaycan xalqının milli mənafeyinə və dövlətçilik maraqlarına, eyni zamanda ictimai rəydəki narahatlığın aradan qaldırılmasına və dilçilik elminin inkişafına xidmət edəcək”.

***Nailə Məhərrəmova***

# Əlahiddə Ümumqoşun Orduda komandirlərin peşəkarlığı artırılır

***Naxçıvan Qarnizonunda tabor, divizion komandirləri və onların müavinləri ilə zabitlərin komandir hazırlığı sistemi çərçivəsində növbəti məşğələlər təşkil edilib. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzindəki trenajorlarda zabitlərin atəş və sürücülük bacarıqları yoxlanılıb. Toplantının sonunda zabitlərdən fiziki və taktiki hazırlıq, topoqrafiya və rəhbər sənədlərin tələblərini bilmələri üzrə məqbullar götürülərək bilik, bacarıq və peşəkarlıqları qiymətləndirilib.***





Bundan başqa, Əlahiddə Ümumqoşun Orduda müxtəlif ixtisaslar üzrə taqım komandirləri ilə keçirilən növbəti təlim-metodiki toplantı başa çatıb. Taqım tərkibində məşğələlərin vahid metod üzrə keçirilməsinə nail olmaq məqsədi ilə hər bir ixtisasdan nümayiş, metodiki və taktiki-sıra məşğələləri keçirilib. Sonda taqım komandirlərindən məqbullar götürülərək toplantıya yekun vurulub.

# Yeni inkişaf mərhələsinə qədəm qoyan pambıqçılıq sahəsi mühüm önəm kəsb edir

*Prezident İlham Əliyev: "Növbəti dövrdə ancaq məhsuldarlığa ciddi diqqət göstərilməlidir və biz çatışmayan bütün məsələləri aradan götürməliyik"*

***Sirr deyil ki, ölkədə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının əsas məqsədlərindən biri də aqrar sektorda yüksək nəticələrə nail olmaqdır. Sözügedən reallığı təmin etmək üçün əsas faktor isə regionlaşdırma, məhsuldarlığı ilə fərqlənən bölgələrin əvvəlki şöhrətini qaytarmaq və müxtəlif rayonlara xas ənənəvi məhsullar yetişdirməkdir. Məhz özünün yeni inkişaf mərhələsinə qədəm qoyan pambıqçılıq bu baxımdan mühüm önəm kəsb edir.***



Müstəqilliyin ilk illərində üzləşdiyi iqtisadi və siyasi problemlərə rəğmən bu gün Azərbaycan bütün sahələrdə sürətli inkişaf yolundadır və burada kənd təsərrüfatı, onun ənənəvi sahələri, xüsusilə, pambıqçılığın bərpası istiqamətində ciddi addımlar atılmaqdadır. Xüsusən, 2015-ci ilin sonlarından etibarən pambıqçılığın sistemli şəkildə inkişafına başlanıldı. 2017-ci ildə pambıqçılığın inkişafı ilə bağlı Dövlət Proqramı qəbul edildi. Bu məqsədlə böyük vəsait ayrıldı, kompleks tədbirlər həyata keçirildi. Eyni zamanda, meliorasiya sahəsində mühüm layihələr icra olundu və bu işlər davam etdirilir. 2016-cı ilin sentyabrında Sabirabadda, 2017-ci ilin martında Saatlıda, bu il isə Bərdədə pambıqçılığın inkişafına dair respublika müşavirələrinin keçirilməsini də bu sahəyə dövlət dəstəyinin əyani nümunəsi kimi xarakterizə etmək olar.

## Dövlət başçısı gələcəkdə səhvlərə yol verilməməsi üçün, düzgün təhlillərin aparılmasının vacibliyini vurğulayıb

Prezident İlham Əliyev Bərdədə keçirilən pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində danışarkən, əldə edilən uğurlarla yanaşı, bəzi nöqsanları da xatırladıb və pambıqçılıq sahəsinin inkişafının daha da sürətlənməsi istiqamətində tövsiyə və tapşırıqlarını verib. SİTAT: "Məndə olan cədvəldə həm yüksək, həm aşağı məhsuldarlıqla seçilən rayonların adları var. Bəzi məlumatları təqdim etmək istərdim. Məhsuldarlığa görə birinci yerdə Tərtər rayonudur - 27 sentner, çox yaxşı göstəricidir. İkinci yerdə Bərdə rayonu - 26,3 sentner. Üçüncü yerdə Biləsuvar - 21,8 sentner, dördüncü yerdə Ağcabədi - 21,5 sentner, beşinci yerdə Ağdam rayonu - 20,6 sentner və ondan sonrakı yerdə Cəlilabad rayonudur - 20 sentner. Bütün başqa rayonlarda məhsuldarlıq 20 sentnerdən aşağı olub - təqribən 18, 15, 13 sentner. Amma elə rayonlar var ki, məhsuldarlıq 10 sentnerdən də aşağı olmuşdur. Mən onların da adlarını çəkmək istəyirəm ki, onlar həm nəticə çıxarsınlar, həm də gələcəkdə öz işlərini daha düzgün qursunlar. Beləliklə, aşağıdan birinci yerdə Neftçala rayonudur - 8,2 sentner. Aşağıdan ikinci Hacıqabul - 8,3, Samux - 8,8, Ucar - 9,3, İmişli - 9,7 sentner. Mən məhsuldarlıq on sentnerdən aşağı olan rayonların adlarını çəkdim. Digər rayonlarda 10 sentnerdən çoxdur. Ancaq bu da, əlbəttə ki, bizi heç cür qane edə bilməz. Ona görə, bir daha demək istəyirəm, növbəti dövrdə ancaq məhsuldarlığa ciddi diqqət göstərilməlidir və biz çatışmayan bütün məsələləri aradan götürməliyik. Hesab edirəm ki, bu, mümkündür, sadəcə olaraq, işlər düzgün qurulmalıdır".

Ölkəmizdə pambıqçılığa cəmi üç ildir ki, ciddi önəm verildiyini xatırladan dövlətimizin başçısı qeyd edib ki, torpaqların seçilməsi, aqrotexniki tədbirlərin görülməsi, suvarma ilə, gübrələrlə, pestisidlərlə, onların keyfiyyəti ilə bağlı problemlər də var. Ona görə çox düzgün təhlil aparılmalıdır ki, gələcəkdə bu səhvlərə yol verilməsin.

## Azərbaycan bu gün pambıqçılıqla bağlı inkişaf templərinə görə dünyada lider ölkədir

Onu da qeyd edək ki, pambıqçılığın inkişafı ilə bağlı mərkəzləşdirilmiş idarəetmə sistemi yaradılıb. Prezident Administrasiyası, yerli icra orqanları, şirkətlər, fermerlər, zəhmətkeşlər artıq bir nöqtəyə vuraraq, yaxşı nəticələrə imza atıblar. İki il ərzində Azərbaycanda pambığın tədarükü 6 dəfə artaraq, 35 min tondan 207 min tona çatdırılıb və bu, son həddi deyil. Məhz bu kimi amilləri nəzərə alarsaq, əminliklə deyə bilərik ki, Azərbaycan bu gün pambıqçılıqla bağlı inkişaf templərinə görə dünyada lider ölkədir. Artıq pambıqçılıq özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Təsadüfi deyil ki, bu sahəyə maraq göstərən fermerlər təsərrüfatlarını ildən-ilə genişləndirirlər. 2016-cı ildə 52 min hektar təşkil edən əkin sahəsinin 2017-ci ildə 136 min hektara qədər yüksəlməsi faktı da bu reallığı təsdiqləyir.

Bütün bunlar, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, qarşıda daha böyük hədəflər var və bunun üçün real əsaslar yaradılır, kompleks tədbirlər davam etdirilir. Dövlət İnvestisiya Proqramı çərçivəsində bu sahəyə vəsait ilbəil artırılır, subsidiyalar verilir, vergi güzəştləri tətbiq olunur, əkin dövriyyəsi genişləndirilir və s. şaxələndirilən ölkə iqtisadiyyatının fundamental prinsiplərindən biri də müasir texnologiyaların tətbiqidir. Təbii ki, bu, kənd təsərrüfatının ayrı-ayrı sahələri, o cümlədən, pambıqçılıqda da mühüm amil kimi dəyərləndirilir və intensiv istehsalın, başqa sözlə, vahid sahədən orta məhsuldarlığın artırılmasında əsas şərtlərdən hesab olunur. Bu baxımdan, dövlət xətti ilə böyük həcmdə müasir texnikalar alınır. Bura 500-ə yaxın pambıqyığan kombayn daxildir ki, onların böyük hissəsi, artıq ölkəyə gətirilib. O cümlədən, ölkədə istehsal olunan traktorlar, digər texnika və qoşquları da qeyd etmək olar.

## Yeni müəssisələr və iş yerləri açılır

Pambıq elə bir məhsuldur ki, onun satışı üçün bazarlar axtarmaq lazım gəlmir, birjalarda satılır və şübhəsiz ki, bu da böyük üstünlükdür. Bundan başqa, pambıqçılıq ciddi əmək tutumlu sahədir, bölgələrdə məşğulluğun təmin olunmasında xüsusi rol oynayır və işsizliyin daim aşağı səviyyədə saxlanılmasına imkan verir. Bütövlükdə, son illərdə pambıqçılıqla məşğul olan insanların sayı 200 minə yaxınlaşır. Əlbəttə ki, bu, xüsusən, bölgələrdə işsizliyin aradan qaldırılması istiqamətində çox ciddi amildir. Pambıqçılığın inkişaf etdirilməsi, həmçinin, ölkədə yeni sənaye müəssisələrinin, məsələn, toxuculuq və digər yüngül sənaye müəssisələrinin yaradılmasını şərtləndirir. Mingəçevir şəhərində Yüngül Sənaye Parkı yaradılıb. Bu ilin fevralında isə parkın iki yeni müəssisəsi fəaliyyətə başlayıb. Həmin müəssisələrdə 700-dən çox insan çalışır və 20 min ton iplik istehsal edilməsi hədəflənir. Bu da, əvvəlki dövrdə istehsal olunan ipliyin, demək olar ki, yarısıdır. Heç şübhəsiz ki, əgər Azərbaycanda pambıqçılıq sürətlə inkişaf etməsəydi, bu müəssisələrə də ehtiyac qalmazdı. Çünki bu fabriklər, ancaq daxili xammal əsasında uğurla fəaliyyət göstərə bilər. Digər tərəfdən, əvvəllər ölkəmizdə fəaliyyət göstərən, son illər isə pambıq istehsalının kəskin azalması ilə əlaqədar fəaliyyətini dayandıran müəssisələr yenidən bərpa olunacaq ki, bütün bunlar da, yeni iş yerlərinin açılması deməkdir. Xatırladaq ki, 2020-ci ilə qədər 200 min hektarda pambıq əkini, 600 min ton pambıq tədarükü planlaşdırılır. Bu isə, 300 min insanın işlə təmin olunması deməkdir. Gübrə ilə təminat da yaxşılaşır. Dövlət bu sahəni də, demək olar ki, öz üzərinə götürüb, 70 faiz güzəştlə gübrələr verilir.

## Ölkə başçısı Cənab İlham Əliyevin bu istiqamətdə apardığı güclü aqrar-iqtisadi siyasət faktoru bu reallığı kifayət qədər təsdiq edir

Yeri gəlmişkən, pambıqçılığın inkişafı, eyni zamanda, bu istiqamətdə də yerli istehsala böyük dəstək verib. Məsələn, ölkəmizdə, ilk dəfə olaraq. pestisid istehsal edilir və bu ildən etibarən Sumqayıtda böyük gübrə zavodu fəaliyyətə başlayacaq. Bundan başqa, ölkədə suvarma texnikasının istehsalı da təşkil olunub. Bütün bunlar isə, növbəti illərdə qarşıda duran əsas vəzifələrdən olan məhsuldarlığın artırılmasına mühüm töhfələrdir. Ümumilkdə, pambıqçılığın ölkə iqtisadiyyatı üçün faydalarını qruplaşdırsaq, qısaca, belə xarakterizə etmək olar.

İlk növbədə:

- məşğulluq təmin edilir, nəinki pambıqçılıq rayonlarında, digər rayonlarda da iş yerləri yaradır;
- ölkəmizə valyuta gətirir;
- qeyri-neft sənayesini inkişaf etdirir;
- yerli istehsala təkan verir və s.

Beləliklə, nəticəyə gəlmək mümkündür ki, Azərbaycanda pambıqçılığın keçmiş şöhrətinin qaytarılacağına heç bir şübhə yeri qalmır. Ölkə başçısı Cənab İlham Əliyevin bu istiqamətdə apardığı güclü aqrar-iqtisadi siyasət faktoru bu reallığı kifayət qədər təsdiq edir.

***Rövşən NURƏDDİNOĞLU***




# Milli mənəvi, dini adət-ənənələrimizi yaşatmalı və düzgün şəkildə insanlara çatdırmalıyıq



***Sentyabrın 11-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Səbail Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini mərasimlər: Ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Səbail Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən Abit Əliyev seminar-müşavirənin önəmi barədə danışıb. O qeyd edib ki, Azərbaycanda hər zaman qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olub. Azərbaycanda tarixən bütün dini konfessiyaların nümayəndələrinin birgəyaşayışı mövcud olub, təriqət baxımından heç bir qarşıdurma müşahidə edilməyib.***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında Azərbaycanda dövlət-din münasibətlərindən bəhs edib. Bildirib ki, dövlət heç bir halda din işlərinə müdaxilə etmir, amma bununla belə, Azərbaycanda dövlət tərəfindən dinə diqqət və qayğı hər zaman özünü büruzə verir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölkədə fəaliyyət göstərən ayrı-ayrı dini icmalara yardımlar göstərilir.

Vurğulanıb ki, Azərbaycanda yalnız Qafqaz Müsəlmanları İdarəsinin verdiyi fətvalara əməl olunur. Artıq Məhərrəm ayı başlayıb və bütün tədbirlər, o cümlədən "Aşura" mərasimi yalnız Qafqaz Müsəlmanları İdarəsinin fətvası əsasında keçirilməlidir, vətəndaşlarımız da qanundankənar hərəkətlərə yol verməməlidir. Komitə sədri deyib ki, bizim üçün dövlət müstəqilliyimiz, azərbaycançılıq ideologiyası müqəddəsdir, dinimiz mənəvi dəyərlərimizdir. Milli mənəvi, dini adət-ənənələrimizi yaşatmalı və düzgün şəkildə insanlara çatdırmalıyıq.

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov seminar-müşavirənin əhəmiyyətinə toxunub. O, DQİDK ilə birgə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətindən söhbət açaraq, dövlətimizin başçısının dini konfessiyalara daim yüksək diqqət və qayğı göstərdiyini vurğulayıb. Qeyd edib ki, bu gün dünyanın hər yerində Azərbaycanda dinlə dövlətin birgə fəaliyyəti nümunə kimi göstərilir. S.Novruzov Məhərrəm ayı və Aşura tədbirləri haqqında da danışıb. Bildirib ki, mərasimlərdə heç bir halda xurafata yol verməк olmaz.

Seminar-müşavirədə çıxış edən Milli Məclisin deputatı Şəmsəddin Hacıyev, Qafqaz Müsəlmanları İdarəsinin Səbail və Qaradağ rayonları üzrə qazisi, Bibiheybət ziyarətgah məscidi dini icmasının sədri Rahib Babayev və digərləri çıxışlarında xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli mənəvi dəyərləri qoruyub saxlamağın əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ümummilli lider Heydər Əliyevin yaratdığı müasir Azərbaycan onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. Ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədə qurulub və dindarlar hər zaman dövlətin dəstəyini hiss edirlər. Sonda mövzu ətrafında müzakirələr aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## Siyavuş Novruzov: "Azərbaycanda din qanunlarla tənzimlənir"



"Azərbaycanda din qanunlarla tənzimlənir. Ölkədə tolerantlıq var, bütün dinlərə eyni münasibətlə yanaşılır". SİA-nın məlumatına görə, bunu jurnalistlərə Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib. O qeyd edib ki, qanunla qeydiyyatdan keçən bütün dini icmalar üçün şərait yaradılıb: "Bu gün dünyanın hər yerində Azərbaycanda dinlə dövlətin birgə fəaliyyəti nümunə kimi göstərilir. Aşura günündə insanların özünü döyməsi, xəsarət yetirməsi, baş yarması qadağan olunur". Siyavuş Novruzov onu da qeyd edib ki, Aşura günü anma mərasimi keçirmək istəyənlər bunu İslama uyğun şəkildə keçirə bilərlər.

## Azərbaycan və Ermənistanın XİN başçıları yaxın vaxtlarda görüşəcək



Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşəcəyini açıqlayıb. SİA-nın "aysor.am" saytına istinadla verdiyi xəbərə görə, Z.Mnatsakanyan açıqlamasında "Çox tezliklə görüş keçiriləcək" deyib. O bildirib ki, görüşün tarixi razılaşdırılmış vaxtda açıqlanacaq.

## Milli Məclisin regional məsələlər komitəsinin payız sessiyasında ilk iclası keçirilib



Sentyabrın 11-də Milli Məclisin regional məsələlər komitəsinin payız sessiyasında ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Milli Məclisin 2018-cı ilin yaz və növbədənkənar sessiyaları ərzində komitədə görülən təşkilati işlər barədə hesabat dinlənilib.

Komitə sədri Arif Rəhimzadə bildirib ki, hesabat dövründə 3 iclas keçirilib, 4 məsələ müzakirə edilib. Bunlardan da biri qanun layihəsi olub. Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi təqdim edilib, "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasına uyğun olaraq demokratik quruluşun əsaslarından biri olan yerli özünüidarəetmənin inkişafı, bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması üzrə mühüm tədbirlər görülüb, bir sıra normativ hüquqi aktlar qəbul edilib. Hesabat dövründə komitənin ünvanına daxil olan 159 müraciətə, təklif, ərizə və şikayətə müvafiq qaydada baxılıb və onlardan 99-u araşdırılması üçün aidiyyəti təşkilatlara göndərilib.

A.Rəhimzadə komitənin 2018-ci ilin payız sessiyası üçün iş planından danışarkən bəzi qanunlara əlavə və dəyişikliklərin ediləcəyini deyib.

Deputatlar komitənin yaz sessiyası dövründə fəaliyyətini qənaətbəxş qiymətləndirib, payız sessiyasının iş planını təsdiqləyiblər. Daha sonra gündəlikdəki digər məsələlər müzakirə edilib. Əvvəlcə "Bələdiyyələrin status haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsinə baxılıb. Bildirilib ki, qəbiristanlıqların salınması və idarə olunması məsələlərində bələdiyyələrin üzərinə düşən vəzifələrin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilmədiyi hallarda məsuliyyət məsələsini təmin etmək məqsədilə sənədin 4-cü maddəsinə bəzi dəyişikliklər edilməsi təklif olunur. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Qanunda edilən dəyişikliyə əsasən sənədin 8-ci maddəsinin 2-ci bəndinin üçüncü abzasında "Bələdiyyələrin ərazisində" sözləri "Bələdiyyələrin ərazisində qəbiristanlıqların salınması, saxlanılması, qorunması, idarə olunması, abadlaşdırılması və bələdiyyələrin ərazisində" sözləri ilə əvəz ediləcək.

"Reklam haqqında" Qanunda dəyişikliklər edilməsi barədə 2017-ci il 17 noyabr tarixli Qanunun tətbiqi ilə əlaqədar "Yerli (bələdiyyə)" vergilər və ödənişlər haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyələrin statusu haqqında" qanunlarda bir sıra dəyişikliklər nəzərdə tutulur. Sonra deputatlar gündəlikdəki məsələlərlə bağlı fikir və təkliflərini səsləndiriblər. Qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

## Yaponiyanın Maebaşi şəhərində Azərbaycan haqqında təqdimat keçirilib

Yaponiyanın Qunma prefekturasının mərkəzi olan Maebaşi şəhərində Azərbaycan haqqında növbəti təqdimat keçirilib. Bu barədə AZƏRTAC-ın Yaponiyadakı bürosuna məlumat verən həmyerlimiz, Qunma Universitetinin magistr tələbəsi Namiq Xəlil bildirib ki, cari ilin aprelində Yaponiyaya gələndən bu, onun təşkil etdiyi üçüncü təqdimatdır. O deyib ki, ölkəmiz haqqında təqdimatlarla çıxış etmək niyyəti barədə onun Maebaşi meriyasının beynəlxalq əlaqələr şöbəsinin müdiri xanım Miçi Yoşidaya müraciəti maraqla qarşılanıb. Bundan sonra o, M.Yoşidanın köməyi ilə Maebaşinin müxtəlif ictimai mərkəzlərində Azərbaycan haqqında təqdimatlarla çıxış edib. Həmin təqdimatlarda N.Xəlil Azərbaycanın coğrafi mövqeyi, tarixi, mədəniyyəti, müstəqilliyini bərpa etdikdən sonra qazandığı uğurlar, beynəlxalq enerji təhlükəsizliyində oynadığı rol barədə iştirakçılara ətraflı məlumat verib.

# Heydər Əliyev Fondunun sosial layihələri xalqlar arasında dostluğu daha da möhkəmləndirir

***Bu gün Azərbaycanda, eləcə də, onun hüdudlarından kənarda fəaliyyəti ilə tanınan və nüfuz qazanan Heydər Əliyev Fondu əsrimizin qabaqcıl və humanizm prinsiplərini bəşər övladına təqdim etmək gücündə olan qurum kimi beynəlxalq miqyasda hörmətlə qarşılanır. Fondun fəaliyyəti dövründə həyata keçirilən genişmiqyaslı layihələr insanların ictimai-mədəni, sosial həyatının yüksəldilməsi və inkişafı baxımından, birmənalı olaraq, çoxsaylı insanların həyat tərzində dönüş yaradıb. Bunların hər biri fondun, qısa zamanda, məqsəd tək qarşıya qoyduğu amalın reallaşması nəticəsində baş tutub. Firavanlığı yaratmaq, həyat tərzində sağlam mühiti formalaşdırmaq, insanların fiziki sağlamlığına diqqət yetirmək, sülhün, əmin-amanlığın çarçısına çevrilmək, müasir dövrün tələblərinə və gələcəyin təminatı olan təhsilə, elmə böyük diqqət ayırmaq fondun məqsədi olaraq, özünü büruzə verir.***



Mövcud potensial, baza əsasında iş prinsiplərinə uyğun bir şəkildə fəaliyyət dairəsini genişləndirən Heydər Əliyev Fondu beynəlxalq miqyaslı layihələrlə xidmət göstərir. Hər bir addımı böyük təntənəyə səbəb olan fond, xüsusilə, humanitar missiyada fəaliyyət proqramının həyata keçirməklə, bütün yaş həddində olan vətəndaşların qayğı və problemlərin təminatçısına çevrilib. Belə ki, ölkə ərazisində uşaq bağçalarının, orta məktəblərin, səhiyyə müəssisələrinin təmir və inşası, eləcə də, əqli və fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olması, şəkərli diabet, böyrək çatışmazlığından əziyyət çəkənlərə pulsuz və yüksək səviyyədə yardım və kömək göstərilməsi Heydər Əliyev Fondunun qısa bir zaman məsafəsində gördüyü işlərin təntənəsi kimi qəbul olunur. Xatırladaq ki, səhiyyəyönümlü layihələr Heydər Əliyev Fondunun fəaliyyətində xüsusi yer tutur. Ölkədə uşaqlar arasında mövcud olan talassemiya xəstəliyinin qarşısının alınması üçün preventiv tədbirlər, maarifləndirmə işlərinin aparılıb, qan testləri keçirilib, xəstəliyin müalicəsi, sümük iliyinin köçürülməsi ilə bağlı bəzi məsələlər həllini tapıb. Paytaxtımızda inşa olan Talasamiya Mərkəzi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirildi. Fondun təşəbbüsü ilə tikilən və bu gün istifadəyə verilən Talassemiya Mərkəzi həmin xəstəliyə düçar olanlar və onların yaxınlarının ümid yerinə çevrilib. Fond səhiyyənin müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi işində də yardımçı olur, təbabətin ən müasir metod və nailiyyətlərindən istifadə üçün beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirir. Bu əməkdaşlıq əsasında, artıq bir neçə lokal layihə həyata keçirilmişdir.







Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Azərbaycanladünyanın müxtəlif ölkələrində bir çox sahələrlə yanaşı, səhiyyə sahəsində də layihələr və xeyriyyə tədbirləri həyata keçirir. Belə ki, Heydər Əliyev Fondu tərəfindən Bolnisi və Qardabani rayonlarına bütün lazımi, müasir texniki avadanlıqla təmin olunan təcili-tibbi yardım avtomobili hədiyyə edilib. Heydər Əliyev Fondunun Azərbaycanda və xarici ölkələrdə həyata keçirdiyi humanitar layihələr çərçivəsində Cibuti Respublikasına tibbi avadanlıqlar göndərilib. Cibuti Mərkəzi Xəstəxanasının pediatriya şöbəsi 10 adda tibbi avadanlıqla təmin olunub və bu aksiya ölkənin səhiyyə sisteminin inkişafına, eləcə də, ikitərəfli münasibətlərin genişlənməsinə öz töhfəsini verir.

Bu sırada Heydər Əliyev Fondu tərəfindən Pakistanda həyata keçirilən silsilə humanitar tədbirləri də qeyd etməliyik. Yardım proqramları çərçivəsində Xayber Paxtunxva əyalətində hepatit B virusuna qarşı peyvənd kampaniyası, açıq ürək əməliyyatları aparılıb, əyalətin klinikalarında serebral iflicin müayinəsi, Pakistan-Əfqanıstan sərhədi boyunca pulsuz qanköçürmə təşkil edilib, göz klinikasının tikintisi üçün maddi yardım göstərilib. Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə Pakistanın bütün əyalətlərində həyata keçirilən layihələr iki xalq arasındakı münasibətləri daha da möhkəmləndirir.

Görülən bu və ya digər işlərin davamı olaraq, bu günlərdə Heydər Əliyev Fondunun dəstəyi ilə Bosniya və Herseqovinanın Kotor Varoş şəhərində inşa olunan Təcili-Tibbi Yardım Mərkəzinin yeni binası açılıb. Bu, Bosniya və Herseqovina ilə Azərbaycan arasında dərin qarşılıqlı münasibətlərin - dostluğun göstəricisidir. Fondun reallaşdırdığı bu layihələr ölkələrimiz və xalqlarımız arasında əlaqələrin genişlənməsinə şərait yaradır. Fondun xeyriyyəçilik fəaliyyətinin nəticəsi olaraq, bu gün Kotor Varoş şəhərində istifadəyə verilən və müasir avadanlıqla təmin edilən Təcili-Tibbi Yardım Mərkəzi yerli əhali üçün mühüm töhfədir. Bu mərkəz, son dövrlər ərzində, Kotor Varoşda ərsəyə gətirilən ən müasir və yüksək standartlara cavab verən tikinti layihəsidir və yerli əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayacaq.

Xatırladaq ki, Heydər Əliyev Fondunun Kotor Varoş Bələdiyyəsinin həyatında mühüm rol oynayan Təcili-Tibbi Yardım Mərkəzinin yeni binasının inşasına göstərdiyi dəstəyə görə Kotor Varoş Bələdiyyə Məclisinin qərarı əsasında cari ilin aprelində "Qızıl Diplom" ilə təltif edilib.

Heydər Əliyev Fondu tərəfindən ən müasir avadanlıqla təchiz edilmiş təcili-tibbi yardım maşını da bağışlanıb. Bu, bir daha Heydər Əliyev Fondunun böyük əməllərə sahib olduğunu göstərir.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***

# Azərbaycan dünyəvi və müasir dövlət olmaqla yanaşı, milli dəyərlərə, hörmətlə yanaşan ölkədir

***Bütün dinlərin və etnik qrupların nümayəndələrinin birgə yaşadığı Azərbaycan torpağında hər kəs dini mənsubiyyətindən, irqindən asılı olmayaraq, azad nəfəs alır və sərbəst fəaliyyət göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan çoxkonfessiyalı və çoxmillətli ölkədir və bu, bizim böyük sərvətimizdir: "...Özünütəcrid, nifrət hisslərinin bəslənilməsi və ya özünün digərlərindən üstün tutulması bumeranq effekti verəcək və nəticədə, bu işlə məşğul olanların özlərinə xələl gətirəcək".***



Azərbaycanda dindarların sərbəst şəkildə ibadət etmələri üçün dövlət tərəfindən hər cür şərait yaradılıb və məzhəb mehribanlığı mövcuddur. Bunun əsas səbəbi Azərbaycandakı din-dövlət münasibətləridir. Bu, onu göstərir ki, Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənənələrində böyük hörmətlə yanaşan bir ölkədir. Azərbaycan tarixən tolerant ölkə olub və hazırda bu, dövlət siyasəti kimi ölkə rəhbərliyi tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə 13 kilsənin, 7 sinaqoqun fəaliyyəti əsas göstəricidir. Azərbaycanın dünya tolerantlığına verdiyi töhfə beynəlxalq aləmdə nümunə kimi qiymətləndirilir.

Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə də olan münasibəti əməli fəaliyyətdə aydın görünür. Ölkəmizdə iki mindən artıq məscdin olması fikrimizi əsaslandırır. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən, dini ocaqlarımıza - məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Ölkəmizdə keçirilən dini mərasimlər tariximizi, mədəniyyətimizi, adət-ənənələrimizi və həyat tərzimizi əks etdirir. Dini mərasimlər arasında Məhərrəmlik mərasimləri də tarixi adət-ənənələrimizə söykənir. Artıq bildiyimiz kimi, müsəlman dünyasında bir neçə gündən sonra Məhərrəm ayı başlanır. Bütün azadlıqların təmin olunduğu Azərbaycanda mövcud olan məscidlərdə Məhərrəmlik mərasimləri keçiriləcək. Hazırda bəzi ölkələrdə Aşura ilə bağlı müşahidə olunan radikal, insan psixologiyasına və sağlamlığına mənfi təsir göstərən tədbirlərdən, Azərbaycanda uzun müddətdir ki, imtina olunub. Bir çox ölkələrdə Azərbaycanın bu təcrübəsi də öyrənilir.

Azərbaycanda formalaşmış din-dövlət münasibətləri yüksəkdir. Dini abidələrimizə, din xadimlərinə göstərilən qayğı diqqətdən yayınmır. Belə ki, hazırda 1060-dan çox din xadimi müxtəlif formada dövlətdən maddi yardım alır. Dövlət başçısının tapşırığına əsasən, cari il sentyabrın 1-dən həmin şəxslərdən gəlir və sosial vergi tutulması dayandırılıb. Bu aydan etibarən, din xadimləri maddi dəstəyi tam məbləğdə alacaqlar. Dövlət məscidlərdə işləyən imam və qazıların həyat şəraitinin yaxşılaşdırılması üçün yaxın aylarda əlavə tədbirlərin görülməsi də nəzərdə tutulur.

Bu gün dünya ölkələri üçün nümunəyə çevrilən Azərbaycan modeli ölkəmizə gələn xarici qonaqlarda maraq doğurur. Çünki burada həm məscidlərimiz, həm də qeyri-xalqların dini abidələri qorunur və abadlaşır. "Bizim tarixi abidələrimiz, dini abidələrimiz milli sərvətimizdir", - deyən Azərbaycan Prezidenti çıxışlarının birində vurğulayıb ki, bütün başqa dinlərin məbədləri bizim üçün əzizdir, bizim sərvətimizdir: "Azərbaycanda bütün dinlərin tarixi-dini abidələri qorunur, bərpa edilir, tikilir. Bu, bir daha onu göstərir ki, Azərbaycanda dini siyasət çox düşünülmüş şəkildə aparılır və Azərbaycan xalqının maraqlarına cavab verir". Əlbəttə ki, qonaqlar abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzini, Katolik məbədini, İmamzadə kompleksini, möhtəşəm Heydər Məscidini görür və bunu heyranlıq hissi ilə qarşılayır və Azərbaycan təcrübəsini öyrənməyə çalışırlar.

Bu gün müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycan uğurlu bir inkişaf yolundadır. Terrorizmin baş alıb getdiyi dünyada, islama qarşı hücumların artdığı və islamofobiyanın gücləndiyi bir vaxtda, Azərbaycan ekstremizm və dözümsüzlük əleyhinə çıxış edir, kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. "İndiki şəraitdə biz görürük ki, dünyanın müxtəlif yerlərində dini məzhəb zəminində qan tökülür, müharibələr alovlanır, böyük faciələr yaşanır" - deyən Azərbaycan Prezidenti bildirib ki, elə etməliyik ki, həm Azərbaycanda, həm yaşadığımız bölgədə vəziyyət müsbət istiqamətdə inkişaf etsin: "Biz adada yaşamırıq, biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Ona görə biz həm ölkə daxilində bu məsələləri daim diqqət mərkəzində saxlayırıq və hesab edirəm ki, beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk".

Əminliklə bildirək ki, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

***Zümrüd BAYRAMOVA***

# Mələhət İbrahimqızı: Azərbaycan regional və qlobal miqyasda gedən proseslərə təsir göstərmək iqtidarında olan güclü aktora çevrilib



"Azərbaycan ötən dövrdə böyük uğurlara imza atıb. Bu gün xalqımız təhlükəsizlik, sabitlik şəraitində yaşayır". Bu fikirləri YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Mələhət İbrahimqızı deyib.

M.İbrahimqızı bildirib ki, son illər dünyanın müxtəlif bölgələrində, o cümlədən Avropada çox təhlükəli proseslər baş verib. Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşayıb. Onun sözlərinə görə, ölkəmizdə Prezident İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan bütün risklərdən özünü qoruya bilib, bu gün də qoruyur və heç bir şübhə yoxdur ki, bundan sonra da qoruyacağıq. Azərbaycan xalqı ötən 15 il ərzində sabitlik şəraitində yaşayıb və yaşayır. Bu da ölkənin inkişafı üçün əsas şərtdir.

"Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Prezident İlham Əliyev Azərbaycanda sabitliyin qarantıdır. Xalqla dövlət başçısının birliyi mövcud sabitliyi sarsılmaz edir. Son 15 ildə reallaşdırılan məqsədyönlü siyasət sayəsində respublikanın iqtisadi müstəqilliyinin təmin olunması, maliyyə imkanlarının genişləndirilməsi Azərbaycanın özünəinam hissini artırır və ölkənin siyasi müstəqilliyini təmin edir. Bu gün Azərbaycan regional və qlobal miqyasda gedən proseslərə təsir göstərmək iqtidarında olan güclü aktora çevrilib. Təsadüfi deyil ki, respublikamız regionda qlobal əhəmiyyətli əksər layihələrin moderatoru rolunda çıxış edir.

Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Ölkənin qarşısında yeni hədəflər, yeni məqsədlər dayanır. Biz daha güclü Azərbaycan qurmaq üçün daha böyük əzmlə, səylə çalışmalıyıq. Biz gələcəyə baxmalıyıq. Perspektivlə bağlı fikirlərini ifadə edən Prezident İlham Əliyev deyib ki, növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Məqsəd dövlətimizin daha da gücləndirilməsi, xalqın rifah halının daha da yüksəldilməsidir. Bu yolda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz inamla irəliləyir"-deyə, YAP Siyasi Şurasının üzvü vurğulayıb.

# Heydər Əliyev Beynəlxalq Aeroportu bu il 3 milyondan çox sərnişinə xidmət göstərib




Cari ilin ilk 8 ayı ərzində Heydər Əliyev Beynəlxalq Aeroportu 3,08 milyon sərnişinə xidmət göstərib. Aeroportun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu göstərici ötən ilin analoji göstəricisindən 12 faiz çoxdur. Azərbaycan Hava Yolları (AZAL) milli aviadaşıyıcısının payına 1 milyon 335 min sərnişin, milli loukoster "Buta Airways"in payına isə 305 min sərnişin düşüb.

İlin əvvəlindən etibarən 2 milyon 650 min sərnişin (ümumi sərnişin dövriyyəsinin 86 faizi) beynəlxalq reyslərlə daşınıb. Beynəlxalq sərnişinlərin ümumi sayının 34 faizi AZAL, 11 faizi isə "Buta Airways" avişaşirkətinin təyyarələri ilə daşınıb. Avqust ayında beynəlxalq sərnişin aviadaşımaları üzrə aviaşirkətlərin onluğuna AZAL və "Buta Airways" ilə yanaşı "FlyDubai", "Turkish Airlines", "Air Arabia", "Aeroflot", "UIA" (Ukrayna Beynəlxalq Hava Yolları), "Qatar Airways", "Utair", "Iraqi Airways", "Lufthansa" və "S7 Airlines" daxil olub. Hazırda Heydər Əliyev Beynəlxalq Aeroportu 40-dan çox istiqamət üzrə 30 aviaşirkətə xidmət göstərir. Ən məşhur beynəlxalq istiqamətlərin onluğuna əvvəlki kimi İstanbul, Moskva, Dubay, Antalya, Şarcə, Kiyev, Bağdad, Tehran, Bodrum və Tel-Əviv daxildir. Bu istiqamətlərə 328 min sərnişin uçub. Onlar cəmi 191 min sərnişinə xidmət göstərib.

# Bakının bəzi küçələrində piyada keçidləri təşkil olunacaq



Piyada təhlükəsizliyinin artırılması məqsədilə paytaxtın Cəfər Cabbarlı və Zivərbəy Əhmədbəyov küçələrinin Əlibəy Hüseynzadə küçəsi ilə kəsişmələrində nizamlanan piyada keçidlərinin təşkili məqsədilə Bakı Nəqliyyat Agentliyi aidiyyəti qurumlara təklif göndərib.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, müsbət rəy əldə edildikdən sonra qeyd edilən ünvanlarda nizamlanan piyada keçidləri təşkil olunacaq. Hazırda hər iki ünvanda piyadaların pərakəndə şəkildə xaotik hərəkəti müşahidə edilir. Bu da piyadaların təhlükəsizliyini təmin etməyə imkan verməməklə yanaşı, həm də nəqliyyatın axınında ləngimələrə səbəb olur.

# Bakıda Azərbaycan-Çexiya biznes forumu keçiriləcək



Sentyabrın 12-də Bakıda Azərbaycan-Çexiya biznes forumu keçiriləcək. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan AZƏRTAC-a bildiriblər ki, foruma Çex Respublikası iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən şirkətlərin qatılacağı gözlənilir.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

12 sentyabr 2018-ci il

***Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya səfəri onun ümidlərini bir anda puça çıxardı. Prezident İlham Əliyevin sentyabrın 1-də Soçiyə səfəri çərçivəsində Azərbaycan və Rusiya arasında 16 sənəd imzalanması, hərbi-texniki əməkdaşlıq məsələlərinin bundan sonra da inkişaf etdiriləcəyi, Azərbaycanın Rusiyadan 5 milyard dollarlıq hərbi təyinatlı məhsullar alması və bundan sonra da bu siyasətin davam etdiriləcəyini qəflətən eşidən və vahimə içərisində olan N.Paşinyan və onun komandası, bu xəbəri eşidər-eşitməz, tələm-tələsik Rusiya paytaxtına səfərə getdisə də, nəticə arzuladığı kimi olmadı.***



# Paşinyanın Rusiyaya səfəri barədə ümidləri puça çıxdı

## *Rusiya və Ermənistan arasındakı münasibətlərdə soyuqluğun davam edəcəyi açıqlamalardan bəlli olur*

Guya nə isə bir nəticə əldə edəcəyinə ümid edən baş nazirin bu addımı da daxili auditoriyaya hesablanırdı və məhz buna görə də, bu səfərin də uğursuz nəticələrini proqnozlaşdırmaq elə də çətin deyildi. Ermənistanın baş nazirindən tutmuş ən adi vətəndaşlarına qədər özləri də yaxşı başa düşürdülər və bilirdilər ki, rəsmi Moskva onların bu qədər xəyanətkarlığı fonunda qucaq açası deyil. Paşinyan Moskvaya yollanıb, Rusiya prezidentinə nə qədər strateji müttəfiqlik və yaxud dostluq və tərəfdaşlıq nağılları oxusa da, Vladimir Putinin ona inanacağına onsuz da zərrə qədər ümidi belə yox idi. Rusiya ilə ikibaşlı oyunlarını yenidən davam etdirəcəyinə də gümanı ola bilməzdi. Çünki başda bu beliçantalı nümayişçi olmaqla. Ermənistanın yeni hakimiyyəti Rusiyaya bacardıqları qədər nankorluq edib, arxa çeviriblər. Nə Rusiya prezidenti, nə də rus xalqı erməni simasızlığından xəbərsiz deyil.

### Vladimir Putinin hansısa müsbət münasibət sərgiləyəcəyinə, ermənilərə əməkdaşlıq təklifləri edəcəyinə ümidlənmək sadəlövhlükdür

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibini Putinlə məsləhətləşmədən həbs etdirən Paşinyanın Rusiya prezidentinin mərhəmətinə zərrə qədər də haqqı ola bilməz və bunu onun özü daha yaxşı başa düşür. Əgər Ermənistanın yeni hakimiyyətində təmsil olunan, Paşinyanın özü tərəfindən təyin edilmiş mədəniyyət naziri, "Ermənistanda rus dili qadağan edilməlidir" kimi bəyanatlar verirsə, Putinin hansısa müsbət münasibət sərgiləyəcəyinə, əməkdaşlıq, dostluq və tərəfdaşlıq təklifləri ilə çıxış edəcəyinə ümid etmək sadəlövhlükdən başqa nə ola bilər? İndi Moskvadan möcüzə gözləyən uşaq misalında hansısa təklif küçə nümayişçisinin təyinatı ilə Milli Təhlükəsizlik Şurasının sədri qoyulan Armen Qriqoryanın da anti-Rusiya davranışı Moskvanın diqqətindən kənarda deyil və belə bir mövqenin müqabilində Rusiya Ermənistanla necə müttəfiqlik sazişi bağlaya bilər? Paşinyanın bütün davranışlarını müşahidə edən Rusiya onun rəhbərlik etdiyi hökumətə, ümumilikdə, Ermənistan dövlətinə heç cür etibar edə bilməz. Ermənistanın küçə nümayişlərindən birbaşa baş nazir postuna oturdulan, beliçantalı nümayişçisi, yaxud yeni baş naziri əməllərinin girovu olaraq uğursuzluğa düçar olacağını əvvəlcədən yaxşı başa düşürdü.

### Kremlin Paşinyana hazırladığı "sürprizlər" Ermənistan üçün soyuq duş effekti verdi

Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya səfərindən bir gün qabaq Kreml Paşinyana bir sürpriz hazırladı. Belə ki, Rusiya Ermənistanın sabiq müdafiə naziri Mikael Arutyunyan barədə axtarışları ləğv etdi. 2008-ci il martın 1-də Ermənistan paytaxtında baş verən qanlı hadisələrlə əlaqədar olaraq, eks-nazir haqqında toplanmış materiallar öyrənildikdən sonra onun Rusiya ərazisində axtarışının ləğv edilməsi N.Paşinyan, eləcə də, bütün Ermənistan üçün soyuq duş effekti idi. Yeni baş nazirin Rusiyaya səfərinə saatlar qalmış Rusiya Nikol Paşinyana daha bir sürpriz etdi. Rusiya ərazisində İrəvanın axtarışa verdiyi cinayətkar generalın axtarışı da dayandırıldı. Yuri Xaçaturov və Robert Koçaryanın ardınca, 1 mart hadisələrinin günahkarı olan Mikael Arutyunyanı da Kreml öz himayəsi altına aldı.

Hansısa ölkənin rəhbərliyində olan şəxsi qəbul edəcək dövlətdə, adətən, səfərə uyğun olaraq müəyyən müsbət addımlar atılır. Daha dəqiq desək, səfər öncəsi atılan addımlar səfərin yüksək səviyyədə keçəcəyinə hesablanmış mesajlar olur. Lakin Paşinyanın Rusiya səfəri öncəsi bunun əksi müşahidə olundu və əslində, bu da bir mesaj hesab olunur. Lakin səfərin yüksək səviyyədə keçəcəyinə hesablanmış deyil, Ermənistan tərəfinin asılı vəziyyətini ona xatırlatmaq məqsədli bir mesaj verildi. Açıq şəkildə Moskva Paşinyana qarşı hörmətsizlik və saymazlıq edir. Onun küçə eyforiyasında olduğunu özünə xatırladaraq, ələ də salır.

### Ermənistan mətbuatı, açıq şəkildə etiraf edir ki, Paşinyan və onun komandası Moskvada məğlub durumda qalıb

Artıq Rusiyanın Ermənistanda itirdiyi mövqeləri geri qaytarmağa başladığı göz qabağındadır. Sözsüz ki, Rusiya onilliklərlə himayə etdiyi Ermənistanı Qərbə hədiyyə edəsi deyildi də. "Məxməri inqlab"dan sonra eyforiyada olan yeni hakimiyyətə yetərincə dərs vermək iqtidarında olduğunu sübut etməyi də ruslar artıq bilir və hər məqamda fürsətdən istifadə edərək səriştəsiz hakimiyyəti məğlub duruma salmaq, görünür, hələlik, qənaətbəxş hesab olunur.

İşğalçı dövlətin mediası öz ölkəsinin baş naziri ilə Rusiya Prezidentinin bağlı qapı arxasındakı danışıqlarından da bəhs edir və bu zaman Rusiyanın kuluarlarına istinad etdiyini bildirir. "Tert.am" saytında qeyd olunur ki, Nikol Paşinyan məqsədlərinin səmimi, təmiz olduğuna Putini inandırmaq üçün bütün mümkün vasitələrə əl atıb. Hətta sözügedən saytda o da xüsusi yer alır ki, əməkdaşlıq naminə Paşinyan bütün qaranlıq suallar üzrə güzəştə getməyə hazır olduğunu da gizlətməyib.

"Tert.am" saytı "Joxovurd" qəzetinə intinadən məlumat verir ki, Ermənistanın baş nazirinin Moskvada iş adamları ilə görüşü də hamar keçməyib. İş adamlarının əksəriyyəti görüşdə müşahidəçi qismində iştirak edib və çıxıb gedib. Digər qismi isə, öz aralarında söhbətləri zamanı bəyan ediblər ki, Ermənistana bundan sonra investisiya qoymayacaqlar və ehtiyat edirlər ki, yeni hakimiyyət onlara əlavə baş ağrısı verə bilər. Sayt "Troyka Dialoq" kompaniyasının rəhbəri Ruben Vardanyanın isə yeni hakimiyyətdən narazı olduğunu və Nikol Paşinyanla olduqca aqressiv danışdığını yazır.

Parlamentin xarici əlaqələr komissiyasının rəhbəri Armen Aştoyan isə jurnalistlərə açıqlamasında bildirib ki, "Ermənistan-Rusiya" əlaqələrində yüksək plan qoyulub və bunu saxlamaq üçün isə kifayət qədər çox səy göstərmək lazımdır". Komissiya rəhbəri baş nazir Nikol Paşinyanın erməni-Rusiya əlaqələrinin mükəmməl olması barədə bəyanatını şərh edərkən, qeyd edib ki, "mən vətəndaş kimi ikitərəfli əlaqələrdə problem olmamasına şad olaram. Çünki bizim ölkəmiz Rusiyadan həm təhlükəsizlik, həm də iqtisadi sahədə asılıdır." Aştoyan bununla ölkəsinin asılılığını da etiraf edir. Əslində, bu, təkcə onun yox, başda Paşinyanın özü olmaqla, bütün ermənilərin etirafıdır.

### Vladimir Putin Ermənistan iqtisadiyyatının 75%-nin Rusiya kapitalından təşkil olunduğuna eyham vurmaqla Nikol Paşinyana həddini bildirib

Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiya səfəri əsnasında, gözlənildiyi kimi. gərgin abu-hava hökm sürürdü və bu gərginliyi biz nazir Nikol Paşinyanın çıxışlarında da müşahidə edə bilərik. Cənab Prezident İlham Əliyevin Rusiya səfəri çərçivəsindəki hərbi əməkdaşlığa toxunan Paşinyan, Azərbaycan tərəfindən Rusiyadan alınmış hərbi təyinatlı məhsulların dəyərinin 5 milyard dolları keçməsindən və bu göstəricinin artmağa meyilli olmasından ciddi narahatlıq keçirdiyini, hətta vahimələndiyini də gizlədə bilməyib.

Rusiya prezidenti Vladimir Putin isə, öz növbəsində, ölkəsinin Ermənistanda əsas investor olduğunu, bu ölkədə kubu cəmi 150 dollara ucuz qaz verdiyini, habelə, atom və istilik enerjisi sahəsini dəstəklədiyini xatırlatmaqla Ermənistan iqtisadiyyatının 75%-nin Rusiya kapitalından təşkil olunduğuna ehyam vurub. Daha dəqiq desək, Rusiya prezidenti Ermənistanın baş nazirinə həddini bildirib. Xüsusilə, İrəvanın Rusiya ilə təbii qazın qiymətinə dair imzaladığı müqavilənin müddətinin bitdiyi bir zamanda, qazın kubunu çox ucuz qiymətə satdıqlarını bildirməsi, iki ölkə arasında münasibətlərdə gərginlik davam edərsə, qazın qiymətinin qaldırıla biləcəyini xatırlatması Putinin hədəsi də hesab oluna bilər. Atom və istilik enerjisi sahəsində Rusiyanın Ermənistanı dəstəklədiyini bildirməsi isə, gərginliyin davam edəcəyi təqdirdə, Metsamor stansiyasında ermənilərin problem yaşaya biləcəklərinə işarəni xatırladan hədədir.

Gərgin atmosferdə keçən görüşdən Rusiya prezidenti heç məmnun qalmadı. İki ölkə arasındakı münasibətlərdə soyuqluğun davam edəcəyi açıqlamalardan bəlli olur. Bu görüş, eyni zamanda, tərəflərin bir-birinə inamsızlığını da nümayiş etdirdi. Rusiya prezidentini ermənilərin baş naziri heç cür aldada bilmədi və görünən odur ki, Vladimir Putin Nikol Paşinyana etimad etmir. "Məxməri inqlab"dan sonra Ermənistanın yeni hakimiyyətinin, ələlxüsus, baş nazirin Qərblə əlaqələrin inkişaf etdirilməsinə tərəfdar olması Rusiya dairələrində Ermənistana qarşı inamsızlığı hələ bundan sonra daha da artıracaq.

***İnam HACIYEV***

# Bəhruz Quliyev: "Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindəndir"



***"Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindəndir. 100 il öncə 1918-ci ilin sentyabrın 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Beləliklə, həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub". Bunu "Səs" media qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev Olaylar.az- a açıqlamasında deyib.***

Bəhruz Quliyev bildirib ki, 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi, Bakı və ətraf rayonlar erməni-bolşevik işğalı altında idi: "Əlbəttə ki, belə bir ağır zamanda və vəziyyətdə Avropa dövlətlərinin türk qoşunlarının Azərbaycana gəlməsinə etiraz etməsinə baxmayaraq qardaş köməyini əsirgəməyən, ölkəmizi tək qoymayan Osmanlı Türkiyəsi 1918-ci ilin avqust-sentyabr aylarında öz tarixi vəzifəsini şərəflə yerinə yetirdi. Sentyabrın 15-də türklər qarşısına qoyduğu missiyanı uğurla başa çatdırmaqla, Bakını işğalçılardan təmizləməklə Azərbaycan dövlətçiliyinə qardaş töhfələrini verdi, Azərbaycan xalqını darda qoymadı. Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürüldü. Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verildi".

"Osmanlı qoşunları Bakının azad olunması üçün həyata keçirdikləri hərbi əməliyyatlarda 1130 şəhid verdilər. Bu səbəbdən də, Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisədir" - deyən Bəhruz Quliyev əlavə edib ki, Azərbaycan xalqı türk əsgərinin qəhrəmanlığını heç vaxt unutmadı, onu qəlbində yaşatdı və hər il sentyabrın 15-də təkcə Bakıda deyil, Şamaxıda, Göyçayda və digər rayonlarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan türk əsgərlərinin məzarlarının ziyarət olunması və dövlət səviyyəsində tədbirlərin keçirilməsi bunun əyani sübutudur. B.Quliyev diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin banisi və qurucusu olduğu müasir Azərbaycan Respublikası cənab Prezident İlham Əliyevin rəhbərliyi altında qardaş Türkiyə ilə dünya dövlətləri üçün nümunə təşkil edən qardaşlıq əlaqələri qurub: "Bu gün Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri hərtərəfli inkişaf edir və regionda əmin-amanlığın və sabitliyin bərqərar olmasına, inkişafa töhfələr verir. Məhz, qarşılıqlı faydalı əməkdaşlıq, birgə gerçəkləşdirilən irimiqyaslı layihələr iki ölkənin strateji tərəfdaşlığını səviyyələndirən mühüm məqamlardır. "Bir millət, iki dövlət" prinsipi ilə münasibətlərini daha sıxlaşdıran Azərbaycan-Türkiyə müttəfiqliyi və qardaşlığı bundan sonra da möhkəmlənəcək və inkişaf edəcək".

## Məhəmmədəli Sədipur: "İran və Azərbaycan limanları arasında gəmi reysləri təşkil etmək olar"



İran ilə Azərbaycanın dəniz limanları arasındakı əlaqələrin inkişafı ticarət və turizm əlaqələrinin də artmasına imkan yaradar. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Limanlar və Dənizçilik Təşkilatının beynəlxalq əlaqələri üzrə baş idarəsinin rəisi Məhəmmədəli Sədipur deyib. Onun sözlərinə görə, Azərbaycanın Xəzər dənizi sahilindəki Bakı və Astara limanları ilə İranın Astara və Ənzəli limanları arasında gəmi reysləri təşkil etmək olar. Bu reyslərlə qarşılıqlı şəkildə vətəndaşların gediş-gəlişi asanlaşar.

"Dəniz nəqliyyatı ilə daha çox yükü tez bir zamanda çatdırmaq mümkündür. Məsafənin yaxınlığı və nəqliyyat xərclərinin ucuzluğu həm özəl, həm də dövlət sektoru üçün səmərəlidir. Bu istiqamətdə Azərbaycan tərəfi ilə danışıqlar aparılır", - deyə o əlavə edib. Xatırladaq ki, Azərbaycandakı 5 dəniz limanı - Bakı, Hövsan, Dübəndi, Səngəçal və Ələt limanları Azərbaycan və İran arasında iqtisadi əlaqələrin inkişafı üçün əlverişli baza sayılır.

## Varşava Böyük Teatrında "Qu gölü" baleti oynanılacaq



Sentyabrın 21-dən 27-dək Varşava Böyük Teatrı və Milli Operasında (Teatr Wielki - Opera Narodowa) P.Çaykovskinin "Qu gölü" baleti nümayiş etdiriləcək. AZƏRTAC teatrın saytına istinadla xəbər verir ki, sentyabrın 21-də və 25-də səhnə əsərində Odetta obrazını Azərbaycanın Əməkdar artisti Çinarə Əlizadə ifa edəcək. O, sentyabrın 23-də və 27-də isə Matilda rolunda çıxış edəcək.

Çinarə Əlizadə Moskvada doğulub. O, Natalya Nestereva Yeni Humanitar Universitetinin Rəqs Akademiyasında və Moskva Dövlət Xoreoqrafiya Akademiyasında təhsil alıb. Çinarə Əlizadə A.Adanın "Jizel", L.Minkusun "Bayaderka", "Don Kixot", P.Çaykovskinin "Şelkunçik", "Yatmış gözəl", S.Prokofyevin "Zoluşka", D.Şostakoviçin "Qızıl əsr" və digər səhnə əsərlərində yaddaqalan obrazlar yaradıb. O, 2016-cı ildən Polşa Milli Baletinin birinci solistidir.

## Nostrifikasiya ilə bağlı sənəd qəbuluna başlanıb




Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyənləşdirilməsi (nostrifikasiyası) ilə bağlı sənəd qəbuluna başlanıb. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, təhsil sahəsində aparılan islahatların tərkib hissəsi olaraq, nostrifikasiya prosedurunda da yeniliklər və vətəndaşların istifadə rahatlığı məqsədilə dəyişikliklər həyata keçirilib. Belə ki, sənədlərin yalnız elektron qaydada www.ani.edu.gov.az internet səhifəsi vasitəsilə rahat şəkildə təqdim olunması üçün qeyd edilən səhifədə müvafiq "Müraciət qaydaları" bölməsi yaradılıb və tələb olunan bütün sənədlər barədə ətraflı məlumat yerləşdirilib. Həmçinin vətəndaşları ən çox maraqlandıran sualları özündə əks etdirən "Mütəmadi verilən suallar" bölməsi istifadəyə verilib. Elektron ərizə sistemində aparılan təkmilləşdirmə işləri davam etdirilməkdədir. Vətəndaşların diqqətinə çatdırılır ki, nostrifikasiya proseduru ilə bağlı bütün rəsmi məlumatları www.ani.edu.gov.az internet səhifəsi vasitəsilə əldə etmək mümkündür. Təhsil Nazirliyi nostrifikasiya proseduru çərçivəsində sənəd qəbulu ilə bağlı heç bir şirkətlə əməkdaşlıq etmir və bu şirkətlərin fəaliyyətinə görə heç bir məsuliyyət daşımır.

## Əflatun Amaşov: "Ölkəmiz özünün ənənəvi xarici siyasət kursuna sadiqdir"



"Prezident İlham Əliyevin Rusiyaya, Qırğızıstana və Xorvatiyaya səfərləri, həmin səfərlər çərçivəsində əldə olunan nəticələr onu deməyə əsas verir ki, ölkəmiz özünün ənənəvi və balanslaşdırılmış xarici siyasət kursuna sadiqdir. Bu siyasətdə Rusiya, türk dünyası və Avropa xətti aydın seçilir. Əsas məqam isə xarici siyasətimizin dəyişən dünyanın reallıqlarına uzlaşdırılmasıdır. Düşünürəm ki, dövlət başçımızın hər üç səfəri bu baxımdan mühüm tarixi hadisədir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib.

Ə.Amaşov Rusiya ilə Azərbaycan arasında son illər artmaqda olan iqtisadi və enerji sahəsindəki əlaqələrə diqqət çəkib. O bildirib ki, ötən ilin yekunlarına əsasən Azərbaycanla Rusiya arasında əmtəə dövriyyəsi 2,5 milyarda çatıb. Rusiyanın Azərbaycana kapital qoyuluşunda, eləcə də birgə layihələrin hazırlanması və reallaşdırılmasında mühüm irəliləyişlər müşahidə edilməkdədir. Rusiyanın iri enerji şirkətləri Azərbaycanda uğurla fəaliyyətdədirlər. "Bütün bunlar təbii ki, yeni əməkdaşlıq şərtləri və imkanları deməkdir. Hesab edirəm ki, dövlət başçımızın Rusiya səfərindən əldə edilən nəticələr bu şərtlər və imkanlar üçün praktik zəmin yaratdı. Azərbaycan üçün Rusiya ilə əməkdaşlıq həm də rəsmi Moskvanın Dağlıq Qarabağ münaqişəsindəki həlledici mövqeyi kontekstində dəyərləndirilməlidir. Münaqişə nə qədər siyasi mahiyyət daşısa da, hesab edirəm ki, iqtisadi amillər də öz sözünü deyir. Bu baxımdan Rusiya ilə iqtisadi müstəvidəki əlaqələrin dərinləşməsinin zəruriliyi qənaətindəyəm", - deyə Ə.Amaşov vurğulayıb.

Azərbaycanın türk dünyasında lider mövqeyə sahibdir. Bu, həm siyasi, həm də iştisadi əhəmiyyət daşıyan statusdur. Deputat bu fikirdədir ki, Qırğızıstanda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının VI sammiti, eləcə də Prezident İlham Əliyevin sammitdə iştirakı, səsləndirdiyi mesajlar bu statusun həm qorunmasının vacibliyini təsdiqlədi, həm də yeni əməkdaşlıq üçün çağırış mahiyyəti daşıdı: "Türk dünyası ayrıca siyasi və iqtisadi platformadır. Biz ona dünyanın siyasi və iqtisadi mənzərəsindəki yeni, alternativ açılım kimi də yanaşa bilərik. Şübhəsiz, zaman keçdikcə bu platforma daha da güclənəcək. Azərbaycan Prezidenti çıxışında bu məqama diqqət yetirdi. Ümumən türk dünyası müstəvisindəki əməkdaşlığın regional və qlobal təhlükəsizlik üçün vacibliyini vurğuladı. Dövlət başçımız bu fikirləri ilə bir növ, çağırış edərək türk dövlətlərini real iş görməyə, real imkanları dəyərləndirməyə səslədi. Bu, son dərəcə mühüm məqamdır".

Azərbaycan Prezidentinin Xorvatiyaya səfərinə gəlincə, Ə.Amaşov vurğulayıb ki, burada başlıca məqam Xorvatiyanın köhnə qitədə hansı mövqedə dayanmasıdır. "Cənab İlham Əliyev Xorvatiyanın Azərbaycanla strateji tərəfdaşı olduğunu bəyan etdi. Ölkə NATO-nun və Avropa İttifaqının üzvüdür. Məlumdur ki, rəsmi Zaqreb Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərində bizi hər zaman dəstəkləyib. Təbii ki, siyasi dəstəyin iqtisadi əməkdaşlıq üçün perspektiv tərəfləri var. Nəzərə alaq ki, Xorvatiya həmçinin "Cənub Qaz Dəhlizi" ilə bağlı ölkəmizdə keçirilmiş toplantıların fəal iştirakçısıdır", - deyə Ə.Amaşov fikrinə aydınlıq gətirib.

# "Aparılan maarifləndirmə işləri Aşura ilə bağlı xoşagəlməz halların sayını azaldıb"

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdir müavini Aqşin Axundovun SİA-ya müsahibəsi*

***- Artıq Məhərrəmlik ayı başlayıb. Ümumiyyətlə, bu ayın fəzilətləri nədən ibarətdir?***

- Məhərrəm "haram olan, qadağan edilən, müqəddəs və hörmət edilən" deməkdir. Məhərrəm ayı haram sayılan dörd hicri aydan birincisidir. Məhərrəmlik ayında insanlar xeyirxah əməllər etməli, pis və günah sayılan hərəkətlərə yol verməməlidirlər.

Məhərrəmlik ayında dünya müsəlmanlarının tarixində kədərli, eyni zamanda insanlara şərəf və qürur bəxş edən Kərbəla faciəsinin, İmam Hüseynin həyat və şəhadətinin yad edilməsi Azərbaycan dindarları tərəfindən tarixi ənənə kimi bu gün də yaşadılmaqdadır.

Ölkəmizdə keçirilən imam Hüseyn əzadarlığında bədbinlik əhval-ruhiyyəsi deyil, Vətən sevgisi, işğal olunmuş Dağlıq Qarabağ torpaqlarının azad edilməsi uğrunda mübarizə ruhu hakim kəsilməlidir. Əzadarlıq moizələrində Kərbəla hadisələri ilə bağlı tarixi həqiqətlərin açıqlanması ilə yanaşı, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçənlərin, 20 yanvar, Qarabağ, və Xocalı şəhidlərinin yad edilməsi tövsiyə edilir.

Aşura mərasimlərində əzadarlar dinimizin etdiyi tövsiyələrə mütləq şəkildə riayət etməlidirlər. Belə ki, əzadarlıq mərasimləri məscidlərdə, ibadət ocaqlarında ictimai asayiş qaydalarına riayət olunmaqla keçirilməli, Kərbəla şəhidlərinin şəninə xütbələr oxunmalıdır. Müqəddəs məkanlarda nizam-intizam gözlənilməli, sinə açmaq, saç yolmaq, zəncir vurmaqla qan çıxarmaq kimi qınağa səbəb hərəkətlərə yol verilməməlidir.

***- Azərbaycanda bu ayla bağlı Qafqaz Müsəlmanları İdarəsinin fətvasında göstərilən tövsiyələrə əməl olunurmu?***

- Azərbaycanda məscidlərdə bu və ya digər ayinlər həyata keçirilərkən QMİ-nin fətvasına və təqvimə əməl olunmalıdır. Bu təqvimdən kənara çıxmaq olmaz. Çünki Azərbaycan Respublikasında İslam dini qurumları öz tarixi dini mərkəzində - Qafqaz Müsəlmanlar İdarəsində birləşdiyi üçün məzhəbindən asılı olmayaraq, hər kəs bu təqvimlərə əməl etməlidir.

Aparılan müşahidələr respublikanın əksər məscidlərində QMİ-nin məhərrəmlik ayı ilə bağlı göstəriş və tövsiyələrinə əməl olunduğunu göstərib. Bu il də belə olacağına inanırıq.

***- Neqativ hallara qarşı hansı tədbirlər görülür?***

- Keçən illərdə aparılmış monitorinqlər nəticəsində respublikanın bəzi şəhər və rayonlarında keçirilmiş əzadarlıq məclislərində bəzi neqativ hallar aşkar edilib. Belə ki, icazəsiz olaraq küçə yürüşlərinə cəhdlər edilib, məsciddən kənar yerlərdə, eləcə də şəxsi evlərdə kütləvi şəkildə dini ayinlərin keçirilməsi və dini atributların məscidlərin xaricində yerləşdirilməsi hallarına rast gəlinib. Qeyd edim ki, mövcud qanunvericiliyə əsasən, əzadarlıq məclisləri yalnız məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə keçirilməli və ictimai asayişə mane olmamalıdır. İbadət məkanlarından kənar ərazilərdə kütləvi yürüşlər yalnız müvafiq dövlət qurumlarının icazəsi əsasında təşkil oluna bilər. Dini atributlar isə yalnız məscidlərin içərisində yerləşdirilməlidir.

Təqdirəlayiq haldır ki, aparılan maarifləndirmə işləri nəticəsində başyarma, qançıxarma və zəncirvurma kimi xoşagəlməz halların sayı azalmaqdadır, çox nadir hallarda bu hərəkətlərə rast gəlinir. Heç şübhəsiz, qeyd edilən belə neqativ hallar aşkarlandıqda yerli icra hakimiyyətləri və hüquq mühafizə orqanları ilə birgə qanun çərçivəsində müvafiq addımlar atılır. Ümid edirik ki, cari ildə belə hallar təkrar edilməyəcək.



***- Hər il ölkəmizdə Aşura günü qanvermə aksiyası keçirilir. Bu il bu aksiyanın əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulurmu?***

- Hər il respublikada Məhərrəmlik ayı zamanı Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə ənənəvi qanvermə aksiyası təşkil edilir. Təqdirəlayiq və sevindirici haldır ki, artıq ölkəmizdə Aşura mərasimləri zamanı ənənəvi qançıxarma mərasimi qanvermə aksiyaları ilə əvəz olunub. Aparılan müşahidələr təsdiqləyir ki, ildən-ilə ictimaiyyət arasında bu xeyirxah aksiyaya maraq artmaqdadır. Hər il respublikanın bütün bölgələrində qanvermə aksiyalarına minlərlə insan qatılır.

Bu il də talassemiya və hemofiliya xəstələri üçün keçiriləcək qanvermə aksiyasının bütün respublikanı əhatə edəcəyinə inanaraq, hər kəsi bu işdə fəal iştirak etməyə çağırırıq. Qan çıxarmağı zəruri hesab edən bəzi dindarlara isə tövsiyə edirik ki, onlar zəncir vurmaqla baş yarmaq əvəzinə könüllü olaraq qan vermə aksiyalarına qoşulsunlar. Bununla onlar Allah qarşısında böyük savab qazanmaqla yanaşı, qan çatışmazlığından əziyyət çəkən minlərlə insanın müalicəsinə böyük töhfə vermiş olarlar.

***- Ümumiyyətlə, Aşura günündə hansı əməllərə riayət etmək Allah tərəfindən bəyənilir?***

- Aşura günü Məhəmməd Peyğəmbərin nəvəsi İmam Hüseynin şəhadət günü olması ilə əlamətdardır. Bu gündə şəhidlik məqamının yüksəkliyindən danışmaq, İmam Hüseynə əza saxlayan insanların içərisində vətənpərvərlik duyğularını daha da yüksəldən çıxışlar etmək əhəmiyyətli məsələlərdəndir. Həmçinin Məhərrəm ayı ərzində İslam birliyinə diqqət artırılmalı, vəhdətə səsləyən təbliğatlara geniş yer ayrılmalıdır. Şübhəsiz ki, müsəlmanlar arasında birlik, həmrəylik Allah qatında bəyəniləcək əməllərdəndir.

Qeyd edək ki, bu ayın 10-cü günü - Aşura sentyabrın 20-nə təsadüf edəcək. Oktyabrın 11-də başlayacaq Səfər ayı Miladi təqvimi ilə noyabrın 8-də başa çatacaq.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Məhərrəm ayının başlanması ilə bağlı verdiyi fətvaya əsasən, Məhərrəmlik mərasimləri İmam Hüseynin (ə) şəninə uyğun və amallarına yaraşan tərzdə qeyd edilməlidir. Mövcud qanunvericiliyə əsasən, təziyə məclisləri məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə təşkil olunmalı, ictimai asayişə mane olmamalıdır. Dini mərasim və ayinlər yalnız QMİ-nin rəsmi şəkildə təyin etdiyi din xadimləri tərəfindən idarə edilməlidir.

İbadət məkanlarından kənar ərazilərdə kütləvi yürüşlərə çıxmaq, özünə və ətrafdakılara xəsarət yetirə biləcək alətləri, başqa ölkələrin bayraq və digər dövlət rəmzlərini mərasimlərə gətirmək yolverilməzdir. Əzadarlıq mərasimlərində dinimizin təyin etdiyi əxlaqi meyarlara riayət olunmalıdır. Soyunmaq, zəncir vurmaqla bədənə xəsarət yetirmək və baş yarmaqla qan çıxarmaq İslam qanunlarına ziddir və İmamın, Kərbəla şəhidlərinin xatirəsinə hörmətsizlikdir. Eləcə də, təziyə məclislərində uşaqların iştirakı qeyri-məqbuldur.

**Nailə Məhərrəmova**

# Hadi Rəcəbli: Bu gün hər bir sektorda inkişaf müşahidə olunur



"Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. İqtisadiyyatın dinamik inkişafının təmin edilməsi bütün sahələrin tərəqqisini təmin edib, əhalinin gəlirlərinin artmasını, işsizlik və yoxsulluğun azalmasını şərtləndirib, vətəndaşların rifahı daha da yaxşılaşıb". Bu fikirləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli deyib.

H.Rəcəbli bildirib ki, bu gün hər bir sektorda inkişaf müşahidə olunur ki, bunun da əsasında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət dayanır. Onun sözlərinə görə, Azərbaycanın iqtisadi inkişaf modeli dünyada dəstəklənir. "Hazırda işsizlik, eyni zamanda, yoxsulluq 5 faiz səviyyəsindədir ki, bu da dayanıqlı inkişaf siyasətinin nəticəsidir. Bunlarla yanaşı, məqsədyönlü siyasət nəticəsində respublikamız öz imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib və hər cəhətdən güclü dövlətə çevrilib. Cənubi Qafqaz iqtisadiyyatının 70 faizdən çoxunu özündə birləşdirən Azərbaycan regionda mühüm siyasi və iqtisadi əməkdaşlıq platformalarının yaradılmasının əsas təşəbbüskarı rolunda çıxış edir. Respublikamızın fəal iştirakı ilə həyata keçirilən enerji, infrastruktur və digər layihələr bütövlükdə regionun inkişafında mühüm rol oynayır. Artıq Azərbaycan Avropanın enerji təhlükəsizliyinə sanballı töhfələr verən nüfuzlu bir ölkəyə çevrilib"-deyə, komitə sədri vurğulayıb.

# "Kommersant"ın müxbiri erməni baş nazirini ələ salıb

*Andrey Kolesnikov: "Paşinyandan onunla Moskvaya getmək üçün xahiş edənlərin hamısı buraya yığışıb"*



Rusiyanın aparıcı media qurumu olan "Kommersant" qəzetinin xüsusi müxbiri Andrey Kolesnikov Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya səfəri və prezident Vladimir Putinlə görüşü ilə bağlı məqalə dərc edib. Məqalədə Paşinyanla bağlı hissələrdə, əsasən, istehzalı fikirlərə yer ayıran rus jurnalistə görə, işlərinin çox olmasına baxmayaraq, Kolesnikov özünü həmin görüşə çatdıra bilib. "Hər halda, Vladimir Putinlə Nikol Paşinyanın danışıqlarına yetişə bildim" deyə yazan "Kommersant"ın xüsusi müxbiri həmin görüşdə gördüklərindən təəccübləndiyini qeyd edib: "Onun nə qədər böyük nümayəndə heyətinin olmasına təəccübləndim. Kremlin nümayəndələr kabinetinə onun ardınca bir anda çox sayda insan daxil oldu. Prinsipcə mən anlayırdım ki, hələ az-çox "sülhpərvər inqilab" vaxtından bu adamlar təkbaşına gəzmirlər, çünki xalqın müqəddəratını həll edirlər... Lakin sonuncu dəfə Kremldə olmuş Çinin nümayəndə heyətinin sayı daha az idi... Görünür, hələ Yerevanda olarkən, cənab Paşinyandan onunla Moskvaya getmək üçün xahiş edənlərin hamısı buraya yığışıb".

Kolesnikov, eyni zamanda, jurnalistlərin az olması məsələsinə də toxunub: "Lakin jurnalistlər az idi: yalnız televiziya və fotomüxbirlər gəlmişdilər. Mən isə, eşitmişdim ki, erməni baş nazir, hansı ki, özü də jurnalist olub, onun baxışından çıxış edəcək hər kəsə özü ilə işləməyə razılıq verib. Ancaq akkreditə xarakteri şübhəli göründü. Elə mənə də..."

"Kommersant"ın xüsusi müxbiri Paşinyanın şəxsi operatorunun və səs operatorunun davranışlarına da diqqət yetirib və onların özlərini vaxtilə Mixail Saakaşvilinin jurnalistləri kimi apardıqlarını qeyd edib.

Digər tərəfdən, Kolesnikov Paşinyanın Rusiya ilə münasibətlərin bundan sonrakı inkişafı barədə və hətta sosial şəbəkələrdə iki ölkə arasındakı münasibətlərin soyuqluğuna baxmayaraq, onlara ciddi yanaşmamalı olması barədə dediyi sözlərinə belə, Putinin bircə dəfə də olsa, təsdiqləyici işarə vermədiyinə diqqət çəkib.

"Qəribədir ki, Rusiyanın prezidenti hətta bir dəfə olsa belə, həmin ifadələri başı ilə təsdiq etmədi" deyə yazan rus jurnalist bundan sonrakı məsələdə Putinin təsdiq işarəsini bu cür ifadə edib: "Lakin bu, o demək deyil ki, bizim münasibətlərimizdə suallar yoxdur!" - deyə davam edən Paşinyanın həmin ifadələrindən sonra Vladimir Putin, axır ki, həmin sözlərlə razılaşıb".

Kolesnikov sonda görüş barədə fikirlərini yekunlaşdırarkən, erməni nümayəndə heyətinin zalı tərk edərək, bəlkə də ilk dəfə əlində nimdaş və üzərinə "erməni konyakı" yazılmış qutu ilə daxil olduğunu yazıb və bununla, həmin görüşdə Paşinyanın ciddi siyasətçi olaraq qəbul edilməməsinə işarə edib.

**Rövşən RƏSULOV**

# Araik Harutyunyan: "Ermənistanın təhsil sahəsində ciddi problemlər var"



Ermənistanda bütün sahələrdə olduğu kimi təhsil sahəsində də ciddi problemlər yaşanır. SİA-nın erməni mətbuatına istinadən verdiyi xəbərə görə, Ermənistanın Təhsil və Elm naziri Araik Harutyunyan verdiyi açıqlamasında bildirib ki, təhsilin keyfiyyətində problemlər olduğu üçün Ermənistan diplomlarının tanınması istiqamətində bir sıra ölkələrlə problemlər yaşanmaqdadır. Onun sözlərinə görə, Ermənistanda fəaliyyət göstərən özəl tibb müəssisələri ölkənin təhsil sektorunun inkişafı üçün ciddi maneələr yaradır ki, bu da nəticə etibarı ilə təhsil sahəsində böyük problemlərə gətirib çıxarır. Araik Harutyunyan qeyd edib ki, ölkədə ciddi demoqrafik problemlər universitetlərdə tələbə çatışmazlığına şərait yaradıb: "Ermənistanın Təhsil və Elm Nazirliyi təhsil müəssisələrinin çətin böhran dövründən xilas etmək üçün digər ölkələrdən olan tələbələrin cəlb edilməsi yoluna əl atmağa çalışır".

# “Həyat və zaman öz sözünü deyəcək”

## Eldəniz Səlimov: “Paşinyanın mövqeyi günortaya qədər Rusiya, günortadan sonra Avropaya istiqamətlənib”

***- Eldəniz müəllim, Paşinyanın Rusiya səfərindən dərhal sonra Dağlıq Qarabağı Ermənistana birləşdirəcəyi kimi təxribat xarakterli bəyanatla çıxış etməsi nədən xəbər verir?***

- Paşinyan bilir ki, Rusiyada Vladimir Putinlə görüşünün nəticələri barədə xalqa məlumat verməlidir ki, ölkədə müvəqqəti də olsa, sakitlik yaratsın. Dəfələrlə Vladimir Putin qeyd etmişdir ki, Rusiya-Azərbaycan əməkdaşlığı günü-gündən genişlənir və strateji əməkdaşlığa çevrilib. Azərbaycanın Rusiya ilə həm siyasi-mədəni, həm də iqtisadi münasibətləri artım tempi ilə inkişaf edir. Bu məsələlər, isti münasibətlər ermənilər təşviş salıb, aprel döyüşlərini də gözlərinin qabağına gətirirlər və bu zaman daha çox təşviş keçirirlər. Bu bəyanat Paşinyanın əhalini qismən sakitləşdirmək üçün növbəti ağılsız bəyanatlarından biridir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Yaxın zamanlarda Ali Baş Komandanın rəhbərliyi ilə Dağlıq Qarabağımız azad



**Müsahibimiz millət vəkili Eldəniz Səlimovdur**

olunacaq, qaçqın və məcburi köçkünlərimiz öz torpaqlarına qayıdacaqlar.

***- Paşinyan Vladimir Putinlə görüşdən sonra Fransaya səfərə də hazırlaşır. Bu ardıcıl səfərlərin Dağlıq Qarabağla hər hansı bir əlaqəsi ola bilərmi?***

- Ola bilsin, Paşinyan Rusiyadan istədiyi dəstəyi almadığı üçün Fransaya üz tutur. Paşinyanın, hələ ki, mövqeyi qeyri-müəyyəndir. Özünün və hökumətinin mövqeyi günortaya qədər Rusiya, günortadan sonra Avropaya istiqamətləndiyindən, özünə yol seçə bilmir, kim nə deyir, onu sınaqdan keçirir. Əhali də belə yanaşmanı qəbul etmir və yenidən küçələrə axın edir. Paşinyanın bu səfərləri gözə kül üfürməkdən başqa bir şey deyil. Fikirləşir ki, bəlkə Avropa ona sahib çıxar.

***- Paşiyanın bu cür təxribat xarakterli bəyanatla çıxış etməsini daxili auditoriyaya hesablanan bəyanat hesab etmək olarmı?***

- Paşinyan belə anormal bəyanatları vaxtı uzatmaqdan başqa bir şey deyil. Gah işğal altında olan Dağlıq Qarabağa, gah Rusiyaya səfərlər edir və bu, yalnız vaxtı uzatmağa hesablanır. Hakimiyyətə necə və haradan gəlibsə ki, özü də bilir, bu cür bəyanatlarla özünü qorumaqdan başqa çıxış yolu yoxdur. Həyat və zaman öz sözünü deyəcək.

**GÜLYANƏ**

# Dubaydan Azərbaycanın digər şəhərlərinə birbaşa uçuşlar həyata keçirilə bilər

***Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki səfiri Daşqın Şikarov Dubay aeroportlarının sədri Şeyx Əhməd bin Səid Al Maktum ilə görüşüb. Şeyx Əhməd bin Səid Al Maktum həm də “Emirates” və “Fly Dubai” Hava Yollarının, “Dubay World” holdinqinin, “Nur” bankının, “Dubay Aviation City” korporasiyasının sədridir.***

Görüş zamanı əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin birinci Prezidenti Şeyx Zayed əl Nəhyan tərəfindən qoyulmuş ikitərəfli münasibətlərin bütün sahələrdə sürətlə inkişaf etdiyi vurğulanıb. Azərbaycan Prezidenti İlham Əliyevin milli iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına dair strategiyası çərçivəsində ölkəmizdə aparılan genişmiqyaslı işlər barədə ətraflı məlumat verilib. Sözügedən strategiya çərçivəsində ölkəmizdə mövcud olan turizm potensialının həyata keçirilməsi istiqamətində görülən işlər, əldə edilmiş nailiyyətlər barədə danışılıb. Azərbaycanda demək olar ki, bütün turizm növlərinin, o cümlədən müalicə, dini, ekoturizm, macəra, ixti-



saslaşdırılmış, kənd turizminin mövcudluğu qeyd olunub. Dünyanın demək olar ki, bütün ölkələrindən yüz minlərlə turistin ölkəmizə səfər etdiyi, son illərdə xalqlarımız arasında təmasların genişləndiyi, Azərbaycana səfər edən BƏƏ vətəndaşlarının sayının ildən-ilə artmasının əməkdaşlığa yeni dinamika verdiyi bildirilib. Vurğulanıb ki, rəsmi statistikaya görə, 2017-ci ildə BƏƏ-dən Azərbaycana yüz mindən çox turist səfər edib və bu da 2016-cı illə müqayisədə 2 dəfə çox olub.

Görüşdə xüsusi vurğulanıb ki, hazırda BƏƏ vətəndaşları Azərbaycana səfər etmək üçün vizanı elektron qaydada və ya ölkəmizin beynəlxalq hava limanlarında əldə edə bilirlər. Bununla yanaşı, cari ilin iyul ayından başlayaraq BƏƏ-nin rezident vizasına sahib olan bütün əcnəbilərə vizalar Azərbaycanın beynəlxalq hava limanlarında rəsmiləşdirilir.

Səfir BƏƏ turistlərinin Azərbaycana artmaqda olan maraqlarının birbaşa uçuşlar coğrafiyasının genişləndirilməsini stimullaşdırdığını diqqətə çatdıraraq, hazırda “Azərbaycan Hava Yolları”nın Bakı-Dubay, BƏƏ-nin “Fly Dubay” şirkətinin Dubay-Bakı və Dubay-Qəbələ, “Air Arabia” şirkətinin Şarja-Bakı, Şarja-Qəbələ, “Etihad” Hava Yollarının Əbu-Dabi-Bakı marşrutu üzrə birbaşa uçuşlarının həyata keçirildiyi barədə məlumat verib. BƏƏ turistlərinin Azərbaycana maraqlarının getdikcə artması baxımından səfir BƏƏ-dən Naxçıvan, Gəncə və Azərbaycanın digər şəhərlərinə birbaşa uçuşların açılmasının vacibliyini bildirib, bu şəhərlərin və Azərbaycanın digər məkanlarının turistik potensialı barədə danışıb. Eyni zamanda, hava daşımalarına yeni aviaşirkətlərin cəlb olunmasının da məqsədəuyğunluğu qeyd olunub.

Şeyx Əhməd bin Səid Al Maktum, öz növbəsində, “Azərbaycan Hava Yolları”nın Dubay hava limanına uçuşlar təşkil edən şirkətlər arasında ən keyfiyyətli xidmət göstərən şirkətlərdən biri olduğunu, yerli sərnişinlər tərəfindən sevildiyini qeyd edib, bu xidmətlərə görə Emin Sadıxova və şirkətin rəhbərliyinə təşəkkürünü ifadə edib.

## “YARAT”dan yeni maarifçilik layihəsi




“YARAT” Müasir İncəsənət Məkanı “Artxronika” adlı yeni maarifçilik layihəsinə start verir. Layihə çərçivəsində “Əmək, istirahət və xəyallar: 1960-1980-ci illər Azərbaycan ustadlarının gözləri ilə” sərgisi ətrafında dünyanın aparıcı sənətşünasları ilə görüşlər silsiləsi nəzərdə tutulub. AZƏRTAC xəbər verir ki, sentyabrın 21-də “Artxronika” layihəsi çərçivəsində “XX-XXI əsr Azərbaycan rəngkarlığı” muzeyində Dövlət Tretyakov Qalereyasının rəngkarlıq bölməsinin əməkdaşı, sənətşünas və ekspert Olqa Polyanskaya ilə görüş keçiriləcək. Rusiyalı ekspert 1960-1980-ci illərin Azərbaycan rəngkarlığı əsərlərindən Dövlət Tretyakov Qalereyasının kolleksiyasında qorunub-saxlanan nümunələr haqqında danışacaq.

Azərbaycan rəngkarlığı bir çox Rusiya muzeylərində mövcuddur, amma məhz Dövlət Tretyakov Qalereyasının kolleksiyası aparıcı ustadlarımızı təqdim edir və məhz bu kolleksiya Azərbaycan incəsənətinin olduqca mühüm mərhələsində rəngkarlığın təkamülü barədə təsəvvür yaradır. Bununla yanaşı, o, həmin dövrün Azərbaycan incəsənətinə müəyyən bir nəzər də salacaq. O vaxtlar təkcə Azərbaycan fırça ustalarının deyil, SSRİ-nin digər respublikalarını təmsil edən sənətkarların da müraciət etdiyi bədii kontekst Azərbaycan tamaşaçısı qarşısında açılacaq.



# Müxalifətçilik “bazarında” monopolistlik iddiası

**RƏFİQƏ**

Təbii ki, hər bir normal demokratik cəmiyyətdə müxalifətin olması vacibdir. Ancaq bu gün Azərbaycanda özlərini müxalifət adlandıranlara baxanda, ağzımda dilim quruyur. Çünki özünə hörmət edən kəs deyər ki, vallah, həmin müxalifəti necə görmüşəmsə, eləcə də qalıb. Sual edəndə ki, nəyə görə belə düşünürsən? Cavab verər ki, müxalifət, əslində, müxalifət olduğu vaxtdan üzübəri həmin təxəyyülə, təfəkkürə və təsəvvürə malik olan uğursuz və pas atmış veteranlardır.

Müxalifətin uğursuz veteranlarının bu günə qədər adına sıralanan bütün biabırçı və rüsvayçı məğlubiyyətlər yazılıb. Durum dünən olduğu kimi, bu gün də dəyişməyib, sabah da dəyişməyəcək. Çünki ünvansız yolun yolçuları olan radikal müxalifət eyniadlı estafeti bu gün də davam etdirməkdədir. Hətta Azərbaycan müxalif düşərgəndə elə bir başıpozuqluq yaranıb ki, sabah onlar daha hansısa əndrəbadi qurum yaradıb, orada toplaşsalar, artıq təəccüb etməyə dəyməz. Çünki adamların pafos, fantaziya imkanları da artıq tükənib və mümkün olan bütün adlardan istifadə ediblər - “SİDSUH”-dan tutmuş, ta “Milli Şura”ya qədər... AXCP, Müsavat, VİP, AMDP, ADP, “Ümid”, KXCP, “Ədalət”, VHP, “AzDP”, VAMP, AXP, eləcə də, adlarını sadalamadığımız digər bənzər partiyalar isə özlərini “cırtdan” partiyaların böyük və ağır “abiləri” hesab edirlər. Bu gün Müsavatın sabiq başqanı İ.Qəmbərin dərdi itirmiş olduğu başqanlıq statusunu kompensasiya etməkdir. Ə.Kərimli isə “Milli Şura”nı əlində alət edib cibinü güdməklə, pulunu qazanmaqla məşğuldur. Yəni bunların yönümləri, tam fərqli olsa da, bənzərlikləri də mövcuddur. Belə ki, hər ikisi bir-birinə uzun illərdən bəri patoloji nifrət bəsləyir. Ona görə də, məqsəd və amal hər nə olursa-olsun, məqamı gələndə, fürsət düşəndə öz zəhərlərini tökəcəklər, nifrətlərini büruzə verəcək və bununla da, bitmiş olacaqlar və görünür, müxalifətçilik “bazarı”nda monopolistliyə yiyələnmək istəyi də ürəklərində qalacaq.

# “İnsanın intihara əl atmasının ən böyük səbəbi cəmiyyətdəki dəyərlərdən uzaq olmasıdır”

Sentyabrın 11-də Bakıda Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə “İntihar: səbəblər və onunla mübarizə” mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, mövzu ilə bağlı tədbir iştirakçılarına məlumat verən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov bildirib ki, son dövrlər dünyada intihar halları geniş yayılıb. İntiharın səbəblərinin fərdlərin cinsinə və yaş kateqoriyasına görə fərqləndiyini deyən M.İsmayılov qeyd edib ki, insanların bu yola əl atmasının ən böyük səbəbi cəmiyyətdəki dəyərlərdən uzaq olmasıdır. Fondun rəhbəri qeyd edib ki, İslamla yanaşı, digər səmavi dinlər də intiharı pisləyir.

Daha sonra intiharın psixoloji səbəbləri mövzusunda çıxış edən psixoloq Rafiq Allahverdiyev deyib ki, son dövrlər intihar dünyada aktual problemə çevrilib. İntiharın psixoloji tərəfini izah edən natiq vurğulayıb ki, bu, fərdin özünü cəmiyyətdən təcrid etməsi ilə bağlıdır. Psixoloji problemi olan insanlar daha çox intihar edirlər. Onların düşüncəsinə görə, cəmiyyətdə heç kəs tərəfindən istənmirlər. Bu səbəbdən onlar problemdən çıxış yolu kimi intiharı görürlər. Bourdin və Esquirol kimi fransız psixiatrlar intiharı patoloji hadisə sayırlar. Esquirola görə, intihar edən insan bu hərəkəti həddindən artıq bir sayıqlama halında edir. Bir təhlükə qarşısında bütün canlılar kimi insanın da atacağı addım özünü qorumaq, təhlükədən qaçmaqdır. Bu qaçma iki şəkildə olur: biri təhlükədən uzaqlaşaraq qaçmaq, digəri isə özünü təhlükənin içinə ataraq qaçmaq. Nevrozlu bir adam təhlükəni açıq şəkildə görə və şərh edə bilmir. O, iki zidd qütb arasında tərəddüd edir və istəmədiyinə doğru yönəlir. Beləliklə, ölüm, yeni, intihar meydana gəlir. Daha sonra konfrans ekspert və gənclərin müzakirələri ilə davam edib.

# Daşkəsəndə təhsil işçilərinin sentyabr konfransı keçirilib

***Dünən Daşkəsən rayon icra hakimiyyətinin iclas zalında rayon təhsil işçilərinin ənənəvi sentyabr konfransı keçirilib. Konfransda Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev, təhsil nazirliyinin nümayəndəsi Mirbaba Babayev, 200 nəfərdən çox müəllim və ictimaiyyət nümayəndələri iştirak edib. Konfrans iştirakçıları öncə, Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsi önünə gül-çiçək dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.***





Konfransda Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev yeni tədris ilinin başlanması münasibətilə müəllimləri təbrik edib. Bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycanın milli təhsil strategiyası bu gün ölkə başçısı Möhtərəm İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq, yüksək səviyyədə davam etdirilir. Ölkə başçısının yüksək diqqət və qayğısı sayəsində, respublikanın hər bir yerində olduğu kimi, Daşkəsən rayonunda da təhsilin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllimlər üçün normal iş şəraitinin yaradılması, onların maddi-rifah halının yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır: "Təkcə son 7 ildə Quşçu, Əmirvar, Mollahəsənli, Muşavaq, Bayan, Əmirvar-Əhmədli kəndlərində və Daşkəsən qəsəbəsində müasir tələblərə tam cavab verən yeni ümumtəhsil məktəbləri tikilib istifadəyə verilmiş, bir çox təhsil müəssisələri isə əsaslı və cari təmir edilibdir. Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin qəzalı vəziyyətdə olan məktəblərin, modul tipli məktəblərlə əvəz edilməsi ilə bağlı tapşırığına uyğun olaraq, pilot layihə çərçivəsində rayonun Güneykənd və Şahvələdli kəndlərində modul tipli məktəblər artıq quraşdırılmışdır və istifadəyə verilməsi üçün son tamamlama işləri aparılır. Daşkəsən qəsəbəsində, Almalı və Gurbulaq kəndlərində isə, modul tipli məktəblərin quraşdırılmasına başlanılıbdır".

Ə.Abıyev çıxışında bu il ali təhsil müəssisələrinə daxil olan daşkəsənli abituriyentlər barədə də danışıb. Bildirib ki, orta məktəb məzunlarından 95 nəfəri respublikanın ali və orta ixtisas məktəblərinə qəbul olunmaq üçün ərizə veribdir ki, onların 55 nəfəri ali, 17 nəfəri orta ixtisas məktəblərinə qəbul olunubdur. Ali məktəblərə qəbul olunan məzunlarımızdan 1 nəfəri 600-dən, 8 nəfəri 500-dən yuxarı bal toplayıbdır. Birmənalı olaraq, bildirirəm ki, rayonumuzda təhsilin inkişafı üçün atılan addımlar ölkə Prezidentinin biz daşkəsənlilərin bu gününə və sabahına ali diqqət və qayğısının əyani göstəricisidir. Məhz bu diqqət və qayğıya görə, Prezident İlham Əliyevə bütün daşkəsənlilər adından minnətdarlığımızı bildiririk."

Ə.Abıyev, sonda onu da vurğulayıb ki, bütün peşələrə yiyələnməkdə müəllimlərin rolu danılmazdır. Müəllimlik ən uca və bütün cəmiyyətlərə gərəkli olan bir sahədir. Heç də təsadüfi deyil ki, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Liderimiz Heydər Əliyev müəllim adını həmişə uca tutaraq demişdir: "Mən yer üzündə müəllim adından uca ad tanımıram."

Rayon Təhsil Şöbəsinin müdiri Zaur Məmmədov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, rayonun pedaqoji işçilərinin builki ənənəvi sentyabr konfransı respublikamızın müstəqillik yolunda inamla addımladığı, təhsil islahatının uğurla həyata keçirildiyi, rayonumuzda abadlıq-quruculuq işlərinin geniş vüsət aldığı bir dövrə təsadüf edir. Ölkə başçısı Cənab İlham Əliyevin diqqət və qayğısı, həmçinin, Heydər Əliyev Fondunun dəstəyi ilə təhsil sahəsində köklü islahatlar aparılır. Azərbaycanda təhsilin inkişafı, bu sahədə islahatyönümlü tədbirlərin durmadan həyata keçirilməsi, milli təhsilimizin qabaqcıl ölkələrin mütərəqqi təhsil sistemlərinə inteqrasiyası Azərbaycan Prezidenti İlham Əliyevin təhsil haqqında konseptual fikirlərindən qaynaqlanır.

Konfransda İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbin direktoru Sevil Ələsgərova, Qaraqullar kənd tam orta məktəbin müəllimi Aygün Bağırova, A.Mürsəlov adına 2 saylı tam orta məktəbin direktoru Aybəniz Vəliyeva və Təhsil Nazirliyinin məsul əməkdaşı Mirbaba Babayev çıxış edərək təhsildəki uğurlardan və qarşıda duran vəzifələrdən danışıblar.

Sonda Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev Təhsil Nazirliyinin "Respublika "Pedaqoji Mühazirələr"inin nəticələrinə görə tərifnaməsini İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Rəna Aslanovaya təqdim edibdir. Konfransda qərar qəbul olunaraq, ölkə Prezidentinə müraciət ünvanlanıbdır.

**RƏFİQƏ HÜSEYNOVA**

## YEVLAXDA QANVERMƏ AKSİYASI KEÇİRİLDİ

Yevlax şəhər icra hakimiyyətinin və İcbari Tibbi Sığorta Agentliyinin təşkilatçılığı ilə Mərkəzi Qan Bankının Mingəçevir bölməsinin həkim, laborant və tibb bacılarından ibarət briqadası avqustun 29-da şəhərimizdə talassemiya xəstəliyinə tutulmuş uşaqların yaşaması üçün mühüm həyati əhəmiyyət kəsb edən qanvermə aksiyası keçirmişdir.



Səhər saat 10-da könüllü qanvermə aksiyasına qoşulanların aksiyanın keçirildiyi Rayon Mərkəzi Xəstəxanasına axını başladı. Mərkəzi Qanvermə Bankının Mingəçevir bölməsinin həkim-laborantı, briqadanın rəhbəri Şamama Mahmudova, ilk öncə, səhiyyə ocağında onlar üçün yaradılmış imkan və şəraitə görə razılığını bildirdi. Qeyd etdi ki, yüksək xeyirxahlıq nümayiş etdirərək, yaşamaq arzusu içərisində çabalayan xəstə uşaqlarımızın gözündə ümid çırağı yandırmaq məqsədi ilə könüllü qanverməyə gələnlər alqışalayiqdir Aksiya zamanı əldə olunmuş qan tərəfimizdən tədarük edilərək, talassemiya xəstələrinin istifadəsinə yönəldiləcəkdir.

Qan vermək üçün gələnlər əvvəlcə qeydiyyatdan keçərək, xüsusi anket alır, yalnız həkim və laborantların ciddi müayinə və yoxlamasından keçdikdən sonra aksiyaya qoşulurlar.

Aksiyada Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatının fəalları, idarə və müəssisə rəhbərləri onların kollektivləri, eləcə də, digər rayon sakinləri, hətta Yevlax rayon xəstəxanasında çalışan tibb işçilərinin özləri belə fərdi qaydada yaxınlaşaraq bu xoş niyyətli xeyirxah əməlləri ilə talassemiya xəstəliyindən əziyyət çəkən uşaqlarımıza qan verir. Məhərrəm ayında onların sağlamlıqlarına qovuşmaları üçün dua edirdilər. Həmin gün xeyli davam edən qanvermə aksiyasında neçə-neçə yevlaxlı soydaşımız öz nəcib əməli ilə insanlıq borcunu yerinə yetirmiş oldular.

**RƏFİQƏ**

# Bakı metrosu qış qrafikinə keçir



Bakı metrosu qış qrafikinə keçir. "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yay mövsümünün başa çatması və xüsusən yeni tədris ilinin başlanması ilə Bakı Metropolitenində sərnişin axını intensivləşir, metro istifadəçilərinin sayı artır. Bununla əlaqədar metropolitendə hərəkət qrafiki mövsümün tələblərinə uyğun yenidən tərtib olunur və digər müvafiq tədbirlər görülür. QSC-nin sədri Zaur Hüseynovun əmri ilə sentyabrın 15-dən metropolitendə qatarların hərəkəti yenilənmiş qrafiklə tənzimlənəcək.

Yeni qrafikə uyğun olaraq, qatarların hərəkəti sıxlaşdırılaraq, xətlərdəki qatarların sayı artırılacaq və interval azaldılacaq. Payız-qış mövsümünün qrafikinə uyğun olaraq, iş günləri ərzində sərnişin hərəkətinin daha çox intensivləşdiyi səhər və axşamın gur saatlarında "Həzi Aslanov-28 May" və əksinə olmaqla qatarlar arasında interval 2 dəqiqə təşkil edəcək. Günün qalan vaxtlarında isə qeyd edilən sahədə hərəkət intervalı 2,5 dəqiqə, sərnişinlərin əsaslı şəkildə azaldığı axşamın gur saatlarından sonra qatarlar arasındakı fasilə 3 dəqiqə və daha çox olacaq. Bakı Metropoliteni xətlərinin xüsusiyyətləri nəzərə alınaraq, xətlərin ayrıldığı "28 May" stansiyasından "Dərnəgül" və "İçərişəhər" istiqamətlərində və əksinə interval iki dəfə artıq olacaq.

Qatarların "Bakmil" stansiyasından xəttə daxil olma və ya "Nəriman Nərimanov" stansiyasından xətdən çıxarılıb, depoya yola salınma ərəfəsində "Ulduz-Həzi Aslanov" sahəsində interval fərqi bir qədər arta bilər. Qeyd edilən qrafik iş günlərini əhatə edir. İstirahət, o cümlədən qeyri-iş günlərində Bakı metropolitenində fərqli hərəkət qrafiki tətbiq olunur. Yeni qrafik 2019-cu ilin yay aylarına qədər qüvvədə olacaq.

Bakı Metropolitenində hərəkət qrafiki il ərzində iki dəfə dəyişdirilir. Tədris ilinin başa çatması və yay mövsümündə əhalinin istirahət məqsədilə daha çox şəhərdən kənara üz tutması ilə əlaqədar metropolitendə qismən yüngülləşdirilmiş qrafik tətbiq olunur. Sərnişinlər qatarların "Bakmil" stansiyasına və əksinə hərəkət cədvəlləri ilə sentyabr ayının 15-dən "metro.gov.az" saytında tanış ola bilərlər. Bunun üçün saytın "Sərnişinlər üçün" bölməsində "Bakmil" stansiyasına (depoya) gedən qatarların hərəkət cədvəli"nə daxil olmaq lazımdır.

# İşıq pulunu ödəmək daha ASAN oldu!

***Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və "Azəri-şıq" ASC-nin birgə əməkdaşlığı çərçivəsində əhali və qeyri-əhali abonentlərinin aylıq debutor işıq borcları ödənişlərinin artıq "ASAN ödəniş" portalı vasitəsilə həyata keçirilməsi mümkündür. Bu barədə AZƏRTAC-a Dövlət Agentliyindən bildirilib.***




"ASAN ödəniş" dövlət informasiya sistemi Azərbaycan Prezidentinin 11 fevral 2014-cü il tarixli 110 nömrəli Fərmanına əsasən yaradılıb. Hazırda 30 mərkəzi icra hakimiyyəti, 79 yerli icra hakimiyyəti və 5 publik hüquqi şəxs, dövlətə məxsus 4 hüquqi şəxs olmaqla 118 dövlət qurumunun inzibati cərimələrinin, kommunal, aqrolizinq xidmətlərin ödənilməsi "ASAN ödəniş" dövlət informasiya sisteminin www.asanpay.az ödəniş portalı və terminalları vasitəsilə həyata keçirilir. Həmçinin ödənişlər sistemə inteqrasiya edilmiş www.hesab.az, www.e-pul.az, www.portmanat.az ödəniş portalları, "e-Manat" və "Milli Ön" ödəniş terminalları, bank şöbələri vasitəsilə təmin edilir.

# Paşinyan sərsəmliyi

*Siyasi uğursuzluq erməni baş nazirini narahat edir*



***İlk öncə Rusiya Prezidenti Vladimir Putinlə sentyabrın 8-də Moskvada Ermənistanın baş naziri Nikol Paşinyanın görüşünə münasibət bildirməzdən öncə, Rusiya prezidentinin köməkçisi Yuri Uşakovun “çox açıq və ciddi görüşün keçəcəyi gözlənilir” deməsindən belə çıxır ki, indiyədək Rusiya və Ermənistanın dövlət başçıları arasında ciddi görüş olmayıb. Başqa sözlə, Ermənistan rəhbərliyi Moskvadan tapşırıq alaraq, onu icra edib və bu mənada, görüş şou xarakteri də daşıyır. Çünki tarixi, siyasi, mədəni, hərbi, iqtisadi, ərazi və s. baxımlardan Ermənistan Rusiyanındır və Moskvaya da ömürlük minnətdar olmalıdır.***

## Paşinyanın avantürist xisləti

Məhz bu baxımdan da, Paşinyanın Rusiyaya qarşı çıxması “bir stəkan suda fırtınaya” bənzəyir. Elə Paşinyan kimi Yerevanın şərhçilərin və təhlilçilərinin özündən razı bəyanatları “görüşün ciddi” və gərgin keçəcəyi məsələsinin üzərinə kölgə salır. Ermənistan Politoloqları Assosiasiyasının sədri Amayak Ovannisyanın qənaətincə, ölkəsində çoxları Rusiyaya münasibətdə reallıq hissini itirib: “Rusiya istəyir ki, Ermənistanda anti-Rusiya ovqatı güclənsin. Onlar öz xalqını “ermənilər satqındır”, “onlar bizə arxadan zərbə vurur”, “onlar rusofobdur” - ifadələri ilə buna əmin etmək istəyir. Bu kimi səbəbdən də, Azərbaycanla dostluq etməyin vacibliyini Rusiya cəmiyyətinə inandırmağa çalışırlar. Əlbəttə, onlar Azərbaycanın varlı olduğunu, arxasında Türkiyə kimi regional gücün dayandığını deməyəcəklər. Ermənilər deyil, türklərlə müttəfiqlik etmək üçün Rusiya Ermənistanı qurban verir”.

Onun sözlərinə görə, Ermənistanda anti-Rusiya təbliğatı aparanlar Rusiya Prezidenti Vladimir Putinə öz xalqı qarşısında bəraət qazanmasına yardım edirlər.

Erməni şərhçilərindən biri isə Rusiyanı hədələyib: “Moskva bilir ki, Ermənistan Qafqazda onun üçün yeganə dayanıqlı platformadır. Ermənistanı itirmək Rusiya üçün Qafqazı itirməkdir”.

Bədbəxtçilik ondadır ki, bu ölkənin təhlilçiləri 2016-cı ilin aprelində Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsindəki döyüşlərdə Rusiyanın Ermənistanı satdığını da vurğulayırlar.

Paşinyanın avantürist xisləti hər an görünür. Belə ki, Paşinyanın Moskvada Qarabağı Ermənistanın bir hissəsi kimi qəbul etdiyi sərsəm fikirləri deyilənlərin məntiqi sübutudur. Bu, işğalçı dövlətin ən kobud və demək olar ki, düzəlməsi mümkün olmayan səhvidir. Paşinyanın bu sərsəm fikri beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə hörmətsizlik və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə zərbədir. Ermənistan bununla baş nazir səviyyəsində əsl niyyətinin münaqişənin danışıqlar yolu ilə həll edilməsi deyil, Azərbaycan ərazilərinin qanunsuz işğalını davam etdirmək olduğunu nümayiş etdirib.

Hərbi ekspert Üzeyir Cəfərov bildirir ki, üzdəniraq Dağlıq Qarabağ Respublikası - qondarma qurumdur və düşünürəm ki, tezliklə separatçılar beynəlxalq qanunlar qarşısında cavab verəcəklər: “Bu həyasız Paşinyan bir az da irəli gedərək, hansısa güzəştlərdən söz açıb. Bu, onun çin olmayacaq yuxusudur ki, gələcəkdə işğal olunmuş Azərbaycan torpaqları Ermənistan ərazisinin bir hissəsinə çevriləcək. Onun sələfləri də bunu arzulayıblar, lakin onlar bəyanatlarda ehtiyatlı idilər, çünki nə ilə nəticələnəcəyini anlayırdılar. Bu küçə uşağı isə Putinlə görüşdən sonra belə axmaq bəyanat verib. Hesab edirəm ki, ATƏT-in Minsk Qrupu səlahiyyətlərindən imtina etməlidir, ya da Paşinyana yerini göstərməlidir. Moskva isə bəyanatla çıxış edərək, bunun səhv olduğunu və mövqeyinin dəyişmədiyini bildirməlidir. Hər şey beynəlxalq hüquq çərçivəsində olmalıdır.”

## Moskva Paşinyanın “göz yaşlarına” inanmır

Nikol Paşinyana qarşı Moskvanın soyuq münasibətdə olduğu sirr deyil. Özü də bu münasibət getdikcə daha da pisləşir. Rusiya KİV-lərində erməni baş nazir və onun “qərbçi” komandası haqda davam edən tənqidi yazılar bu qənaəti möhkəmlətməkdədir. Ancaq N.Paşinyan vəziyyətdən ciddi şəkildə narahatdır və Putinin etimadını qazanmaq və ürəyinə yol axtarmaqla bərabər, şəriksiz rəhbər olduğu “məxməri inqilab”ın “meyvələrini” də kiminləsə bölüşməyə hazırlaşmır. Çünki qarşıdan seçkilər gəlir və indilikdə ictimai etimadı, o, tam xərcləyib qurtarmayıb, ölkə daxilində bəzi populist addımlarını, qalmaqallı həbsləri davam etdirir. Təbii ki, kütlənin ona inamı, kritik həddən aşağı düşən kimi, Paşinyan özünün siyasi uğursuzluqlarına şərik axtaracaq.

Ancaq Paşinyan, bir reallığı da anlamalıdır ki, keçmiş “KQB” zabiti Vladimir Putinə “qarmaq atmaq” üçün erməni siyasətçilərin, gərək, 2 başı olsun. Paşinyan bunun qəliz məsələ olduğunu özü də anlayıb və “Exo Moskvı”ya müsahibəsində dediyi “Putini görüşdən öncə, başqa cür təsəvvür edirdim” sözləri dolayısıyla son qənaətin təsdiqi sayıla bilər.

Paşinyan anlayır ki, Rusiya onu devirəcək. Bu səbəbdən, Rusiya ilə münasibətləri nizama salmağa, Kremlə itaət göstərməyə getmişdi. Hətta Rusiya prezidenti Putinə yaltaqlanaraq bildirdi ki, baxın görün, qısa vaxtda neçənci görüşümüzdür, bizim, hətta xüsusi insani münasibətlərimiz də var. Lakin Putinin Paşinyanın bu sözlərindən heç çöhrəsi belə dəyişməyib.

## Nikol Paşinyan “qaş düzəltdiyi yerdə, göz çıxartdı”

Nikol Paşinyan, görüş zamanı “bir-birimizin daxili işlərinə qarışmayaq” ifadəsini işlətməsi küçə “demokrat”ın növbəti uğursuz gedişi və gülünc ifadəsidir.

Məsələyə münasibət bildirən politoloq Zərdüşt Əlizədə bildirib ki, əslində, Paşinyanın dediyi bu fikir beynəlxalq hüququn müddəasıdır: “Paşinyanın “bir-birimizin daxili işlərinə qarışmamaq” bəyanatı gülüncdür. Ermənistanın Rusiyanın daxili işlərinə qarışması üçün hansı imkanlara malikdir? Rusiyada yaşayan 2 milyona yaxın erməni rus hakimiyyətinin xidmətində durub, hökumətə yalvarır ki, bizim pul qazanmağımıza mane olma. Lazımdırsa, biz Ermənistanı da, Qarabağı da satarıq, təki bizim pul qazanmağımıza mane olmayasan. Samvel Karapetiyan və digər erməni milyonçular var ki, onlar ancaq rus hakimiyyətinin mərhəmətindən istifadə edərək, nələrsə qoparıblar. Onlar rusların xoşuna gəlməsələr, əllərindən hər şeyləri alına bilər. Ermənistanın Rusiyanın daxili işlərinə qarışmasına heç bir imkanı yoxdur, Rusiyanın Ermənistanın daxili işlərinə qarışması üçün 100 faiz imkanı var. Hərbi bazasından tutmuş, erməni iqtisadiyyatındakı payı, erməni cəmiyyəti daxilindəki “beşinci kolon”u, casus şəbəkəsi, sərhədlərin qorunmasına qədər hər cür imkanlara malikdir”.

Politoloq qeyd edib ki, Ermənistanın Qərbə yönəlməsi nağıldır: “Paşinyanın bütün nazirləri qərbyönlü olsa belə, indiki siyasi sistem daxilində heç nə edə bilməz. Bunun üçün Paşinyan xalqa söykənərək, sistemi dəyişməlidir. Hansı xalqa söykənir? Beyni tamamilə çaşmış, səhv düşünən xalqa? Bu xalq “Arsax” bağırır. Nə qədər ki, “Arsax, Arçax” deyə qışqırırlar, Ermənistan qəfəsdən çıxa bilməyəcək”.

Beləliklə, Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiya səfəri çərçivəsində Prezident Vladimir Putinlə görüşü gözlənildiyi kimi, gərgin ab-havada keçib. Xüsusi olaraq, Vladimir Putinin Rusiyanın Ermənistanda əsas investor olduğunu, bu ölkəyə min kubu cəmi 150 dollara ucuz qaz verdiyini, habelə, atom və istilik enerjisi sahəsində dəstəklədiyini xatırlatmasıyla Ermənistan iqtisadiyyatının 75%-ni Rusiya kapitalının təşkil etdiyinə eyham vurdu. Qazın ucuz qiymətə satıldığının bildirilməsi isə, Paşinyana xəbərdarlıq idi. Belə ki, münasibətlərdə gərginliyin davam edəcəyi təqdirdə, Rusiyanın satdığı qazın qiymətini qaldırması ehtimalı yüksəkdir. Xüsusilə, nəzərə almaq lazımdır ki, İrəvanın Rusiya ilə təbii qazın qiymətinə dair imzaladığı müqavilənin müddəti bitmək üzrədir. Putinin atom və istilik enerjisi sahəsində Rusiyanın Ermənistanı dəstəklədiyini bildirməsi də, ondan xəbər verir ki, Metsamor AES məsələsində Rusiya öz dəstəyini göstərməyə bilər.

Beləliklə, gərgin atmosferdə başlayan görüş tərəflərin bir-birilərinə sətiraltı mənalar ifadə edən bəyanatları ilə başa çatması Rusiya prezidentinin bu görüşdən heç də məmnun qalmadığını ehtimalını doğurur.

Beləliklə, Ermənistan baş nazirinin və Rusiya prezidentinin açıqlamaları ondan xəbər verir ki, iki ölkə arasındakı münasibətlərdə soyuqluq davam edəcək. Həmçinin, bu görüş, bir daha onu göstərdi ki, tərəflər bir-birilərinə inanmır. Başqa sözlə, Putin Paşinyana etibar etmir və onun “göz yaşlarına” inanmır.

**A.SƏMƏDOVA**

## Hulusi Akar: Yunanıstanın türk əsgərlərini təhvil verməsi yaxşı qonşuluq münasibətlərinin nümunəsidir



Türkiyə sularında qanunsuz miqrasiyanın qarşısını almaq üçün xidmətdə olan iki əsgər Yunanıstan tərəfindən saxlanılmışdır. Aparılan danışıqlar, o cümlədən Yunanıstan müdafiə naziri ilə telefon söhbətləri əsasında qısa müddətdə əsgərlər Türkiyə tərəfinə təhvil verildi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin milli müdafiə naziri Hulusi Akar ifadə edib. Əsgərlərin azad olunmasını “yaxşı qonşuluq münasibətləri üçün gözəl nümunədir” kimi dəyərləndirən nazir qarşı tərəfə təşəkkürünü ifadə edib. Suriyanın İdlib şəhərindəki vəziyyətdən, xüsusilə dinc əhalinin, qoca, qadın və uşaqların məruz qaldığı zorakılıqdan narahatlığını ifadə edən Türkiyənin milli müdafiə naziri bölgəyə endirilən aviasiya zərbələrinin dərhal dayandırılmasını, atəşkəsin və sabitliyin bərpa olunmasının vacibliyini diqqətə çatdırıb.

## Qətər 22 il ərzində Çini LNG ilə təmin edəcək



Qətər 22 il ərzində Çini mayeləşdirilmiş təbii qazla (LNG) təmin edəcək. AZƏRTAC xəbər verir ki, Qətərin “Qatargas” enerji şirkəti Çinin “PetroChina International” şirkətinə ildə 3,4 milyon ton LNG göndərəcək. Tərəflər 22 illik müqavilə imzalayıb. Çinə LNG “Qatar Petroleum”, “Total” və “ExxonMobil”in birgə səhmdarı olduqları “Qatargas 2” layihəsi çərçivəsində göndəriləcək. Qətər Çinə ilk LNG yükünü bu ay çatdıracaq. Çinin LNG idxalı ötən il 46 faiz artaraq 38,1 milyon tona çatıb. 2020-ci ilə qədər idxalın 70 faiz artaraq 65 milyon tona çatacağı gözlənilir.

## KİV: Əfqanıstanda partlayış nəticəsində ölənlərin sayı 50 nəfərə çatıb



Əfqanıstanın şərqində yerləşən Nanqarhar əyalətinin Mohmand Dara rayonunda etiraz aksiyası zamanı baş verən partlayış nəticəsində azı 50 nəfər həlak olub. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, əyalət qubernatorunun nümayəndəsi partlayışın terrorçu-kamikadze tərəfindən törədildiyini bildirib. Onun sözlərinə görə, etirazçılar Mohmand Daranın yaxınlığında yerləşən Açin rayonunun polis qüvvələri komandirinin istefasını tələb edirdilər. Hələlik ölkədə fəaliyyət göstərən heç bir qruplaşma hadisənin məsuliyyətini üzərinə götürməyib. Taliban hərəkatı isə partlayışla əlaqəsinin olmadığını bildirib.

# KXCP-də qarşıdurma

*Oqtay Gülalıyev: "Yoxsa böyük faciə baş verə bilərdi"*

***B**əlli olduğu kimi, Klassik Azərbaycan Xalq Cəbhəsi Partiyasında daxili vəziyyət neçə müddətdir ki, kritik səviyyəyə çatıb. Baş verən qarşıdurmalar fonunda əsas tərəflər sədr Mirmahmud Mirəlioğlu və onun tərəfdarları ilə Oqtay Gülalıyevdir. Xatırladaq ki, O.Gülalıyev, bir müddət əvvəl, KXCP-nin ali məclisindən uzaqlaşdırılmışdı. Buna əsas səbəb kimi, onun AXCP sədri Əli Kərimlinin nəzarətində olan "Milli Şura"ya üzv olması, eləcə də, partiyanın maraqlarına qarşı çıxması göstərilib. Yaxın vaxtlarda KXCP-nin növbəti qurultayı gözlənilir və bu qurultayda sədr seçkisi ilə yanaşı, təşkilatın qarşıda dayanan vəzifələri, habelə, digər vəzifələrə seçkilər keçiriləcək.*



Digər bir maraqlı məqam isə, KXCP ali məclisinin sessiyasının çağırılmasına rəğmən, orada yaşanan qarşıdurmalar, eləcə də, yetərsayın olmadığı üçün sessiyanın baş tutmamasıdır ki, bu amil də vəziyyətin gərginləşməsinə səbəb olub. Lakin O.Gülalıyevin sosial şəbəkədə paylaşdığı statusu odun üzərinə benzin səpilməsi effektini verib. Məsələ ondadır ki, Gülalıyev artıq 7-ci aydır ki, ali məclisin sessiyasının keçirilmədiyini xatırladıb və baş tutmayan bir sessiyada yetərsayın olmadığını önə sürərək, bunu sədr M.Mirəlioğlunun günahı olduğunu bildirib. "KXCP-nin iclasında iştirak etmək üçün qərargaha gəlmişdim" deyə yazan O.Gülalıyev, iclas başlamamışdan öncə, ona qarşı bir neçə partiya üzvünün hücum etdiyini bildirib: "Bir neçə partiya üzvü mənə və digər dostlara hücum çəkərək, bizi ittiham etməyə başladılar. Mən, əvvəlcə, bu ittihamlara əhəmiyyət vermək istəmədim. Məclis başlayan kimi, təhqirə məruz qalanlardan biri MNTK üzvü Sərxan Carçı çıxış edərək, bəzi partiya üzvlərinin qeyri-etik hərəkətləri barədə ölçü götürülməsinin vacibliyini bildirdi. Ali məclisin sessiyasında yetərsayın alınmamasına partiya rəhbərliyinin aydınlıq gətirməsini istədi. Məsələyə dərhal emosional reaksiya verən KXCP sədri M.Mirəlioğlu, təhqir edənlərə sözünü demək əvəzinə, MNTK üzvünü yalan danışmaqda ittiham etməyə başladı. Aydın oldu ki, mənim və digər insanların üstünə yeriyən, bizi ittiham və təhqir edənlərin arxasında birbaşa sədrin özü dayanır. Mirmahmud Mirəlioğlu daha sonra üzünü mənə tutaraq, partiya ilə bağlı məsələnin sosial şəbəkədə müzakirə olunmasının namus məsələsi olduğunu bildirərək, ali məclis üzvü olmadığıma görə, məclisi tərk etməyimi xahiş etdi. Mən sədrin xahişinin nizamnaməyə zidd olduğunu, məclisin qapalı olmadığını, mənimlə bağlı məsələnin gündəlikdə olduğunu bildirdim. Məclisdə yetərsay olmadığı və vəziyyətin gərginləşməməsi üçün zalı tərk etdi..."

Maraqlıdır ki, O.Gülalıyev müxalifət "liderlərinin" zəifliklərini etiraf edib və xalqın belə "liderlərin" arxasınca getmədiyini doğru seçim olaraq qiymətləndirib: "Deməli, xalqımız haqlı olaraq, belə "müxalifətçilər"in, "liderlər"inın arxasınca getməyib, onların çağırışına səs verməyib, onları hakimiyyətə gətirməyib. Yoxsa bilirsinizmi nə baş verərdi? Böyük bir faciə..."

Onu da qeyd edək ki, siyasi müxalifət kuluarlarında O.Gülalıyevin "Milli Şura"da təmsil olunması ilə yanaşı, AXCP sədri Ə.Kərimlinin tapşırıqlarını həyata keçirdiyi deyilir. Eyni zamanda, KXCP sədri M.Mirəlioğlu da, bu iddiadadır ki, O.Gülalıyev KXCP-ni parçalayaraq, onun üzvlərini AXCP, yaxud "Milli Şura"ya transfer etsin. Ancaq fakt budur ki, KXCP daxilində yaranmış vəziyyət, həqiqətən də, pik həddə çatıb və belə davam edərsə, partiyanın parçalanacağı ehtimalı da arta bilər. Bu isə, AXCP sədri Ə.Kərimlinin əlinə oynayan haldır. Bu baxımdan, M.Mirəlioğlu son gücünü ortaya qoyaraq, ona və sədri olduğu partiyaya qarşı savaş açan tərəflərə daha ağır zərbələr vurmağa məhkumdur. Hər halda, qurultay baş tutarsa, ondan sonrakı proseslər bütün reallıqları ortaya çıxarmış olacaq.

***Rövşən RƏSULOV***

# Müxalifətin "xaç anası"ndan Əli Kərimliyə irad

*Görünür, Xədicə İsmayıl "REAL"çıları uzunqulaq adlandırmasını unudub*



**B**aşqalarından asılı olan insanın həqiqət adı altında söylədikləri həmişə qeyri-səmimi olub. Bu gün dağıdıcı müxalifət düşərgəsində olan "liderlər" xarici qüvvələrin nökərləri olmaqla, həm də xəstədirlər. Həyatları natamam olan bu xəstə "liderlər" hər şeyi - Vətəni, dövləti, xalqını satan, ermənıyə nökərçilik edən, Qərbin qulbeçələri olan Əli Kərimli, İsa Qəmbər, Cəmil Həsənli, Arif Hacılı, Leyla Yunus, Xədicə İsmayıl... və... İlqar Məmmədov kimilərin "şəxsiyyət"lərini formalaşdıran xarici qrantlardır. Sarmaşığa bənzəyən bu satqınlar qrata görə bir-birilərinə qurşaqdan aşağı nə gəldi deyirlər. Necə deyərlər, saxta "qəhrəman" obrazını nümayiş etdirən və Qərbin qulbeçəsi olan İ.Məmmədovun azadlığa buraxılması müxalifət "liderlər"inin kürkünə yaman birə salıb. Elə götürək, AXCP sədri Ə.Kərimlinin "REAL" rəhbərliyi ilə münasibətlərinin soyuq olması faktoruna. Artıq sosial şəbəkələrdən də, bu, bəllidir. Müsavat rəhbərliyinin susqunluğu isə sual doğurur. Əcəba, İ.Məmmədovun azadlığa buraxılması müxalifətin ürəyincə olmadımı? Bu mənada, AXCP və Müsavat tərəfdarlarının sosial şəbəkələrdə İ.Məmmədovun azad edilməsi ilə bağlı passiv fəaliyyəti də diqqətdən yayınmır. AXCP sədri yalnız "REAL" sədri azadlığa çıxan gün onu sosial şəbəkədə qısa paylaşımla təbrik edərək, məsələyə bir daha qayıtmadı və bu günə kimi də, müxalifət "lider"lərindən heç kim İ.Məmmədovla bağlı heç bir açıqlama da verməyib.

Məsələyə münasibət bildirən siyasi müxalifətin "xaç anası" X.İsmayıl, xüsusilə, Ə.Kərimliyə və İ.Qəmbərə öz iradını bildirib və bildirdiyinə görə, özünün keçən il "REAL"çıları necə təhqir etdiyini də, görünür, unudub...

## Xədicə İsmayıldan müxalifət "lider"lərinə rişxənd

Bu soyuqqanlığa narahatlığını bildirən X.İsmayıl facebook sosial şəbəkəsindəki hesabında türk müğənnisi Sezen Aksunun "Hər şey fani" mahnısını paylaşaraq, "bu da dünəndən öz sevincini ifadə edə bilməyənlərə ərməğan olsun" deyə müxalifət liderlərinə rişxənd edib...

Ataların "kor-kora kor deməsə, bağrı çatlar" ibrətamiz məsəli yadıma düşür. Belə ki, ötən il "REAL"çıların Respublika Günü ilə bağlı keçirdikləri toplantıda həmin bu satqın erməni xisləti "xaç anası" X.İsmayıla yerlərinin olmadığını deyiblər. X.İsmayıl "REAL"çıları təhqir edərək, bildirib ki, belələrini gərək eşşəyə qoşaydılar... Bu, yeni feysbuk qarşıdurmasına səbəb olub. Ən maraqlısı isə, "REAL"çılar özləri də etiraf ediblər ki, təşkilatları "tısbağa yerişli" bir təşkilatdır. Bu etiraf X.İsmayılın xoşuna gəlməyib. O, sosial şəbəkədə "REAL"çıları təhqir edən statuslar yazmağa başlayıb və onları qorxaq adlandırıb və bir qədər də irəli gedərək, İ.Məmmədovun tərəfdarlarını təhqir edib, bununla kifayətlənməyərək, onlara uzunqulaq bağlı misal çəkib.

Beləliklə, baş verənlərə diqqət yetirsək, görünür, özünü gah "araşdırmaçı jurnalist", gah da "hüquq müdafiəçisi" kimi siyasi müxalifətin "aparıcı fiquru" qismində zorla ictimai rəyə sırımağa çalışan X.İsmayıl fəaliyyətində yaranmış durğunluğu aradan götürmək istəyir. Necə deyərlər, "qaşınmayan yerdən qan çıxaran"da, bilmirdin ki, sənin də dediklərin üzə çıxacaq.

Belə görünür ki, İ.Məmmədovla bağlı müxalifətdaxili intriqalar bundan sonra da davam edəcək.

***Rəfiqə HÜSEYNOVA***

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

**A**TƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 12-də Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçirəcəklər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik və onun səhra köməkçisi Mixail Olaru aparacaqlar.

# Sankt-Peterburq turist vergisi tətbiq etməyə hazırlaşır



**S**ankt-Peterburq şəhərinin maliyyə komitəsinin sədri Aleksey Korabelnikovun sözlərinə görə, yeni yığım 2019-cu ildən reallaşdırıla bilər. AZƏRTAC Rusiya KİV-lərinə istinadla xəbər verir ki, komitə sədrinin fikrincə bu addımın atılması Rusiya Federasiyasının Vergi Məcəlləsində dəyişiklik olunmasını tələb edir. Hazırda isə Maliyyə Nazirliyi bu istiqamətdə Mədəniyyət Nazirliyi ilə iş aparır.

Nəzərdə tutulan yığımın detalları hələ müzakirə prosesində olsa da, komitə rəhbəri qeyd edib ki, burada yük biznesin deyil, turistlərin üzərinə düşməlidir: "Bütün hallarda yığımı qonaqlar ödəyəcək. Biz öz turizm infrastrukturumuzun əlavə yükünü demirik, söhbət şəhərimizin bizim infrastrukturumuzdan istifadə edən qonaqlarından gedir. Dünya təcrübəsinə uyğun olaraq, biz turistlərin öz töhfələrini verməl012rini ədalətli hesab edirik".

# "Nar"-dan Türkiyəyə səfər edənlər üçün sərfəli rominq paketi

"**N**ar" rominqdə olan abunəçilər üçün sərfəli təkliflər təqdim etməyə davam edir. Türkiyədə olan "Nar" abunəçiləri əla qiymətə təqdim olunan "Tətil" internet paketlərindən yararlana bilirlər. Bunun üçün, səfərə çıxarkən "Tətil" paketlərindən birini sifariş etmək kifayətdir. Abunəçilərin istəklərini nəzərə alan "Nar" rominq internet paketlərini cəmi 2 AZN-dən başlayan qiymətlərlə təqdim edir. 200 MB-lıq internet paketini aktivləşdirmək üçün *777#102#YES, 600 MB-lıq paket üçün isə *777#105#YES şifrəsini yığmaq kifayətdir. İnternet paketlərindən Türkiyə ilə yanaşı, Rusiya, Gürcüstan, Ukrayna, Mərkəzi Asiya ölkələri, ABŞ, İran, İsraildə də yararlanmaq mümkündür.

Şifariş edilən paketin daxili internet balansını yoxlamaq üçün *777#20#YES kodunu yığmaq kifayətdir. "Tətil" paketlərinin istifadə müddəti 15 gündür. Nar.az saytına daxil olmaqla və ya "Tətil" yazıb 777 nömrəsinə SMS göndərməklə paketlər haqqında ətraflı məlumat əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayıb. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə Azərbaycanda ən yüksək nəticəyə nail olub.

# XX əsrin əvvəllərində yaranmış məktəblərin qadınların təhsil hüququnun müdafiəsində rolu

***XX əsrin əvvəllərində Bakıda qeyri-müsəlman sakinlərə məxsus bir çox xeyriyyə cəmiyyətləri fəaliyyət göstərirdi. Alman icmasının Bakıda bir neçə cəmiyyəti mövcud idi. 1907-ci ilin iyul ayının 20-də "Bakı-Yevangeliya-Lyuteran Qadınlar Xeyriyyə Cəmiyyəti" yaradıldı.***

Tədqiqatçı C.Cavadov yazır: "Cəmiyyətin təsisçiləri Bakıdakı protestant keşişin həyat yoldaşı E.Tsimmeran, E.Loter, birinci gildiya tacirinin həyat yoldaşı E.Ekdən ibarət Bakının alman qadınları idi. Cəmiyyətin Nizamnaməsi təkcə qadınların deyil, eyni zamanda, kişilərin də müəyyən miqdarda pul köçürməsi şərtilə, cəmiyyətə üzv olmasına icazə verirdi. Cəmiyyətin fəxri üzvləri hər iki cinsdən xüsusi xidmətləri ilə fərqlənən şəxslərdən seçilirdi. Həqiqi üzvlər isə. yalnız qadınlardan seçilirdi. Yarışan üzvlər kişilərdən ibarət olurdu, onlar səsvermə hüququna malik deyildilər".

Almanlara məxsus ikinci cəmiyyət "Qızlara yardım edən Yevangeliya Cəmiyyəti" adlanırdı. Onun Nizamnaməsində deyilirdi ki, "cəmiyyət Yevangeliya dini təriqətinə qulluq edən qızların zərərli, qeyri-normal yola düşməməsi və mənəvi cəhətdən sağlam yetişməsi məqsədi ilə yaradılmışdır."

Fuad Axundovun fikrincə, Bakıda Aleksandrinskaya adını almış ilk Müsəlman Pedaqoji Qız Məktəbini H.Z.Tağıyev açmışdır. F.Məmmədovanın göstərdiyi kimi, bu onun maarif sahəsindəki fəaliyyətinin tacı sayılır. O, cəmiyyətin normal inkişafı üçün maarifə böyük üstünlük verir, onu qadın məsələsinin həllində əsas halqa sayırdı. O, hələ XIX əsrdən bu fikri həyata keçirmək istəyində olmuşdur. H.Z.Tağıyev 4 may 1896-cı ildə o dövrün ictimai xadimi M.Şahtaxtinskiyə məktubunda yazmışdı: "Müsəlman qadınını olduğu qapalı həyatdan çıxarmaqdan ötrü yeganə bir yol var - yalnız məktəb. Bu məktəbi elə yaratmaq və elə qurmaq lazımdır ki, müsəlmanlar ona rəğbətlə yanaşsın və tam əminliklə öz qızlarını ora oxumağa göndərsinlər".

Belə bir qadın məktəbinin açılması çox müqavimət tələb edən iş idi. Bir tərəfdən, yerlərdə çar-rus hakimiyyətinin şovinizm fonunda gizli etirazı, digər tərəfdən isə, sırf müsəlman olan əhalinin ortodoksal mühitinin açıq-aşkar hücumuna qarşı mübarizə etmək lazım idi, üçüncüsü isə, o, bu addımı ilə, millətin qadın qisminin nüfuzunu qaldırmaq istəyirdi. Qılman İlkin göstərir ki, Azərbaycan tarixində mesenatlığın atası sayılan H.Z.Tağıyev öz cəsarəti, inadlı tələbi, millətsevərliyi, həm hakim dairələrində, həm də əhali arasında olan böyük nüfuzlu, həmçinin, şəxsi maliyyəsi hesabına Azərbaycan qadını üçün bu məktəbi açdı.

O, ilk məktəb yaradan, beləliklə XIX əsrin sonu XX əsrin əvvəlində Azərbaycanda qadın məsələsini maarifdə həll edən böyük şəxsiyyətdir. O, bu məktəbin açılması üçün siyasi bir gediş etdi. Məktəbi II Nikolayın taxta çıxdığı günü qeyd etmək üçün açdığını bildirdi və məktəbə imperatriçə Aleksandra Fyodorovnanın adını verib, "Aleksandriyskaya" adlandırdı. Məktəbə Zaqafqaziyanın bütün bölgələrindən qızlar qəbul edilirdi. Sonralar məktəbi "Aleksandra məktəbi" kimi yox, H.Z.Tağıyevin Qız Məktəbi kimi tanıyırdılar.

Azərbaycan ziyalılarının əksəriyyəti Rusiyada təhsil alıb gəlmiş liberal düşüncəli şəxslər idi. Onların içərisində iki azərbaycanlı qadının olması faktı Azərbaycan qadın hərəkatı tarixi üçün qızıl səhifələrdir. Onlar H.Z.Tağıyevin, bilavasitə müavinəti ilə təhsil almış Hənifə xanım Məlikova və Şəfiqə xanım Əfəndiyevadır.

İkinci məsələ daha ağır idi. Hökm sürən şəriət qanunlarına qarşı çıxmaq olduqca çətin idi. Lakin o, bunu da nüfuz sahibi olan mollaların razılığını alaraq həll etdi. Üçüncüsü isə, o, xaricdə təhsil alıb geri qayıdan ziyalılarımızın azərbaycanlı qızlarla ailə həyatı qurmalarını da onların qarşılarına bir şərt olaraq qoymuşdu. Burada, belə bir haşiyəyə çıxaq ki, bu, H.Z.Tağıyevin üç tələbindən biri (vəsait verirdi ki, get oxu və geri dön; ikincisi, işlə və mənim vəsaitimi geri qaytar; üçüncüsü isə, müsəlman qızı ilə ailə həyatı qur) idi.

1898-ci il mayın 16-da Aleksandriya adına Bakı Qadın Rus-Müsəlman Pedaqoji Məktəbinin Nizamnaməsi təsdiq olundu. 1901-ci il oktyabrın 9-da Şərqdə müsəlman qızları üçün ilk məktəbin təntənəli açılışı oldu. Məktəbin direktoru H.Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikova idi. Çox sonralar ADR-in xarici işlər naziri olmuş Ə.Topçubaşov məktəbin açılışında belə demişdi: "Gələcək tarixçi bu hadisəni müsəlman qadınının, bütün başqa xalqlarda olduğu kimi, ailə ocağını yandıran bir gözəl varlığın, yüksəliş dövrünün başlanğıcı kimi qeydə alacaq". Bu, həqiqətən, də Azərbaycan tarixində böyük hadisə idi.

İnqilabadək Bakıda rus dilində üç qız gimnaziyası var idi: Mariya Gimnaziyası, "Müqəddəs Nina" Gimnaziyası və 3N-li Qız Gimnaziyası. Bununla paralel olaraq, 5 kişi gimnaziyası var idi.

Tarixən Azərbaycanda qadın hərəkatı, onların cəmiyyətdə oynadığı rolu beş mərhələyə bölmək olar: XIX əsr Rusiyanın tərkibinə daxil olana qədər; Çar Rusiyası dövrü; ilk müstəqillik - ADR dövrü; Sovet dövrü. Sovet dövründən sonrakı illər və ya daha dəqiq desəm, ikinci müstəqillik dövrü. Birinci mərhələ, əsasən, qadının cəmiyyətdə "görünmədiyi" və çox qapalı olduğu; ikinci mərhələ qismən artıq "məktəb"ləşmə, yəni qızlar üçün də təhsil yerlərinin açılması ilə, qadının cəmiyyətə atılması ilə səciyyələnir. I mərhələ haqqında ötən fəsillərdə kifayət qədər bəhs edildi, ikinci və üçüncü mərhələlər ayrıca paraqrafda izah olundu.

Ona görə də, digər mərhələlər barəsində də açıqlamalar aparmaq üçün, əsasən, tarixi faktları, baxış və fikirləri aydınlaşdıraq. Qadınların ictimai həyata daxil olmaları onların neft sənayesində muzdla işləmələri, dərzi sexlərində çalışmaları, xeyriyyəçi fəaliyyətləri, qadın mətbuatı, qadın klubları və siyasi qruplar vasitəsilə başlamışdır. Bütün bunlar qadınların savadlarını artırır, onların ixtisas almalarına kömək edir, qadınların qanuni hüquqlarını və ümumi statusunu möhkəmləndirirdi. Müsəlman islahatçı hərəkatları, həmçinin, XIX əsrin sonunda, XX əsrin əvvəlində regionda geniş yayılmış millətçilik və sosial-demokratik hərəkatları daxilindən qadın azadlığının kişi və qadın tərəfdarları meydana çıxırdı. Bu zaman hamını narahat edən məsələ qadınların köməksizliyi və savadsızlığı idi. Bu ərəfədə "qadın məsələsi"nin aktuallaşmasına yaranan xeyriyyə cəmiyyətləri xüsusi təkan verdi.

Xeyriyyəçilik hərəkatından danışarkən, ASE-in X cildində getmiş yazı maraq doğurur: "1906-1916-cı illərdə Azərbaycanda qadın azadlığı məsələsi ətrafında mübarizə aparılmışsa da, konkret "qadın cəmiyyəti" olmamışdır. Ş.Əfəndiyeva, S.Axundzadə, X.Əliboyova, H.Məmmədquluzadə kimi qadınlar ictimai işlərdə və cəmiyyətlərdə ("Nicat", "Səfa", "Səadət", "Cəmiyyət" və s.) fəal iştirak etmişlər. Əgər 1914-cü ildə məktəblərdə azərbaycanlı qızların sayı 1862 nəfər idisə, ibtidai rus qız məktəblərində isə 16972 nəfər təhsil alırdı. 1915-ci ildə 11 qız gimnaziyası, 2 pedaqoji gimnaziya var idi.

Əgər əvvəllər qadınların fəaliyyəti, əsasən, fərdi özünütəsdiq şəklində təzahür edirdisə, bu dövrdə təşkilatlanmış qadın cəmiyyət və qrupları yaranır. Gövhər xanım Qacar, Həmidə xanım Cavanşir, Nigar xanım Şıxlinskaya və başqa Azərbaycan maarifçi qadınları geniş proqram üzrə fəaliyyət göstərən "Qafqaz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyəti" yaradırlar. Bakı və Bakı quberniyasında da qadınlar böyük iş aparırdılar. Bu dövr xeyriyyəçi qadın hərəkatı tarixinə Hənifə xanım Məlikova, Rubabə xanım Qasımova, Nabat xanım Aşurbəyli və onlarla başqa xanımların adları daxil oldu. Qadın təşkilatları Şəki, Lənkəran, Zaqatala və Azərbaycanın başqa şəhər və rayonlarında yarandı.

1874-cü ildə Azərbaycanda ilk qız gimnaziyası açılıb və 1883-cü ildən Marinskaya adlanıb. XX əsrin əvvəllərində hüquqi səlahiyyət daşıyan xüsusi rəsmi xeyriyyəçilik cəmiyyətləri meydana çıxır. Qız gimnaziyaları, qız məktəbləri də bu xeyriyyəçilik cəmiyyətlərinin təşəbbüsü ilə yaranır. Bundan başqa, o dövrün neft maqnatlarının, formalaşmaqda olan milli burjuaziyanın, maarifpərvər ziyalılarının da bu yolda əvəzolunmaz xidmətlərini danmaq qeyri-mümkündür.

Qadın təhsili, ümumilikdə, qadınların maarifləndirilməsi kimi təşəbbüs, yuxarıda qeyd etdiyimiz kimi, bu üç təbəqənin diqqətini özünə cəlb etdi. Məsələnin məğzi nədən ibarət idi:

- əvvəla, liberal ideyaların inkişaf etdiyi Qərb və Rusiya ictimai-siyasi mühitində təhsil alan milli ziyalılar ordusunun yaranması və onların bərabərlik və ictimai fayda haqqında mütərəqqi fikirləri Azərbaycana gətirmələri, cəmiyyətdə keyfiyyətli dəyişikliklər, o cümlədən, qadın təhsilinə də maraq yaratdı;

- ikincisi, sənayeçilərin xeyriyyəçilik hərəkatı da, sosial vəziyyətdə baş verən dəyişmələrin nəticəsi kimi, bu istiqamətdə görülən real işlər də qadın məsələsi kimi problemi diqqətə çəkdi.

Bu baxımdan, ayrı-ayrılıqda hələ əsrin əvvəlində gender meyarına istiqamətlənən hallara diqqət edək. 1907-ci ildə alman icmasına məxsus "Bakı Yevangeliya-Lyuteran Qadınlar Xeyriyyə Cəmiyyəti", Rus İcmasının "Kiril - Mefodi Qardaşları Bakı Pravoslav Xeyriyyə Cəmiyyəti"nin yaranması gender ölçüsü baxımından, diqqətəlayiq hadisədir.

C.Cavadovun fikrincə, 1905-ci il oktyabrın 10-da "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" Tiflisdə Qafqaz canişini qraf Vorontsov-Daşkov tərəfindən təsdiq edilmişdir. Cəmiyyətin fəxri sədrliyinə Bakı qubernatoru knyaz M.N.Nakaşidzenin arvadı Adelaida Lvovna Nakaşidze seçilmişdi. H.Z.Tağıyevin həyat yoldaşı Sona (Safiya) Tağıyeva isə idarə heyətinin fəxri üzvləri arasında idi. Cəmiyyətin Nizamnaməsinin üçüncü bəndində deyilirdi ki, millətindən və dinindən asılı olmayaraq, hər iki cinsin nümayəndəsi cəmiyyətə üzv ola bilər. Bunu isə artıq gender əsasnaməsi adlandırsaq, səhv etmərik.

Sənədlərdən məlum olur ki, Tiflisdəki ikinci müsəlman yetimxanasında 71 nəfər kimsəsiz yerləşdirilmişdi ki, onların 31 nəfəri oğlan, 40 nəfəri isə qız idi. Türkiyənin Qars, Ərzurum, Olti quberniyalarından gətirilmiş 6 yaşından 14 yaşınadək olan 26 nəfər qız Bakıdakı yetim evində saxlanılırdı.

Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin I Dünya müharibəsi dövründəki fəaliyyəti türk ədəbiyyatında da işıqlandırılmışdır. Bu baxımdan, Türkiyədə çap olunan "Erkenekon yolu" jurnalının redaktoru Məmməd Sadıq Aran 1961-ci ildə "Qardaş köməyi" məqaləsində yazırdı: "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin rus hökuməti ilə apardığı danışıqlardan sonra qadın doktorlar, müəllimlər, gənc universitetlilər və xalq təmsilçiləri Azərbaycan Cəmiyyəti - Xeyriyyəsinin idarəsi altında Anadoluya axdı... Zəngin və kübar ailə qadınları gecəli-gündüzlü tikiş makinalarının başında Anadolu həbzadələrinə əlbisə və yataq tikişləri tikməyə, köylülər corab hörməyə, əczaxanalar dərman hazırlamağa, məhəllələrində qadın heyətləri yorğan-döşək toplamağa başladılar".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Demet və Okan boşandı



Müğənni Demet Akalın və həyat yoldaşı Okan Kurt boşandı. Axşam.az "Posta"ya istinadən məlumat verir ki, cütlük bu gün Beykoz məhkəməsində 7 illik evliliklərini bitirdi. Məhkəmə zalına ayrı-ayrı gələn Demet və Okanın kefsiz olması diqqətdən qaçmayıb. Qızları Hiranın kiminlə qalacağı haqda isə heç bir məlumat verilməyib. Qeyd edək ki, ikilinin boşanmasına səbəb evlərinin və şirkətlərinə məxsus maşınların müsadirə olunmasıdır.

# Avstraliyada nadir qızıl külçələr tapılıb



Avstraliyanın qərbində mədənçilər tərkibində böyük miqdarda qızılın olduğu iki böyük daş parçası aşkar ediblər. Daşlardan hər birinin bir neçə milyon dollar dəyərində olduğu bildirilir.

"RNC Minerals" mədən şirkətinin məlumatına görə, 95 kiloqram ağırlığında olan birinci daş parçasında təqribən 2400 unsiya (70 kiloqramdan çox) qızıl var. Kalqurli yaxınlığında yerləşən həmin mədəndən ötən həftə təxminən 11 milyon dollar dəyərində qızıl çıxarılıb. Lakin şaxtaçıların son tapıntıları çox nadir hesab edilir.

Qızılaxtaranların qənaətinə görə, böyük daşın təqribi qiyməti 3 milyon dollar, 63 kiloqram (təqribən 1600 unsiya qızıl) ağırlığında olan ikinci daşın qiyməti isə 1,9 milyon dollardır. Avstraliyanın Kertin Dağ-Mədən Universitetinin professoru Sem Spirinq bildirib ki, adətən avstraliyalı şaxtaçılar bir ton qayadan təqribən 2 kiloqram qızıl əldə edirlər. "Belə tapıntılara çox nadir hallarda rast gəlmək olar. Bu fenomenal və heyranedici tapıntıdır", - deyə professor vurğulayıb.

# Qidanın miqdarı deyil, qəbul saatı daha vacibdir

Yuxu bioritminin pozulması və ya düzgün qidalanmamaq əvvəllər alimlərin hesab etdiyi kimi orqanizm üçün bir o qədər də təhlükəli deyil. AZƏRTAC Mail.ru informasiya portalına istinadla xəbər verir ki, ABŞ-ın Solka Bioloji Tədqiqatlar İnstitutunun alimləri bu qənaətə gəliblər.

Mütəxəssislər bildiriblər ki, insan və heyvan orqanizmində özünün "bioloji saatı" ilə çalışan genlər var. Bu genlərdən bəziləri gündüz, bəziləri isə gecə işə düşür. Birincilər həzmə cavabdeh, ikincilər isə yara sağaldıcı keyfiyyətə malikdirlər. İndiyədək hesab olunurdu ki, gündəlik bu tsikl pozulduqda orqanizmin metabolizm prosesində də müəyyən dəyişikliklər baş verir. Lakin, alimlər sübut ediblər ki, rejim dəyişikliyi səbəbindən meydana çıxan bu pozuntuların fəsadları orqanizm tərəfindən on saat ərzində aradan qaldırılır.

Tədqiqatlar zamanı mütəxəssislər iki qrup siçovulun sutkalıq rejimində, xüsusilə də qidalanmalarında bəzi dəyişikliklər ediblər. Belə ki, birinci qrupdakılar daima yeməklə təmin olunarkən, digərləri hər on saatda bir dəfə qidalandırılıblar. Nəticədə birinci qrupdan olan siçovullar sürətlə kökəliblər. Onların çəkisi ilə yanaşı, qanlarında şəkərin miqdarı da artıb. İkinci qrupdakıların isə çəkisi dəyişməyib və onlarda sağlamlıq problemləri yaranmayıb.

Bununla da alimlər belə nəticəyə gəliblər ki, qidanın nə vaxt qəbul edilməsinin heç bir fərqi yoxdur-bu saat altıya qədər və ya sonra ola bilər. Burada əsas məsələ qidanın miqdarını məhdudlaşdırılması deyil, müəyyən yemək tsikli üzrə yeməkdir.

# Marseloya verdigən yayındığı üçün 753 min avroluq cərimə

"Real"ın müdafiəçisi Marselonun verdigən yayındığı təsdiqlənib. Qol.az-ın "El-Mundo" nəşrinə istinadən yaydığı xəbərə görə, braziliyalı futbolçu özü öz günahını etiraf edib. Nəticədə Madrid məhkəməsi oyunçunu 753 min avro məbləğində cərimələyib. Bundan başqa, ona 4 aylıq şərti həbs cəzası verilib. Qeyd edək ki, "Real"ın sabiq hücumçusu, mövsümün əvvəlində "Yuventus"a keçən Kriştiano Ronaldo da eyni səbəbdən məhkəməlik olmuşdu.


səs

Son səhifə 12 sentyabr




# Millətlər Liqası: Türkiyə millisindən əzmkar qələbə!

Sentyabrın 10-da UEFA Millətlər Liqasında ikinci turun növbəti oyunları keçirilib. İkinci turda bir sıra maraqlı qarşılaşmalar keçirilib. Milli komandamız səfərdə Malta yığması ilə 1:1 hesablı bərabərliyə razılaşıb. "A" liqasının 3-cü qrupunda Portuqaliya millisi dördqat dünya çempionu İtaliya yığmasını qəbul edib. Görüş "Estadio da Luiz" stadionunda oynanılıb. Qarşılaşma 1:0 hesabı ilə meydan sahiblərinin xeyrinə başa çatıb. Oyunda yeganə qolun müəllifi Andre Silva olub, o, matçın 48-ci dəqiqəsində fərqlənib. Gecənin dramatik futbol qarşılaşması İsveçdə baş tutub. "B" liqasının 2-ci qrupunda yer alan Türkiyə millisi, 0:2 hesabı ilə geriyə düşdüyü qarşılaşmada İsveç yığmasını 2:3 hesabı ilə məğlub edib. "C" liqasının 4-cü qrupunda Monteneqro yığması Litva millisini (2:0), həmin qrupda yer alan Serbiya seçməsi isə doğma meydanda Rumıniya millisini məğlub edib (2:1).

Azərbaycan millisinin yer aldığı "D" liqasının Farer Adaları yığması səfərdə Kosovo yığmasına 2:0 hesabı ilə məğlub olub. "C" liqasının 1-ci qrupunda Şotlandiya millisi Albaniya yığmasını (2:0), "D" liqasının 1-ci qrupunda isə Andorra seçməsi Qazaxıstan komandasını məğlub edib (1:0).

# Keçmiş boksçu ABŞ prezidenti olmaq fikrinə düşüb



Dünya Boks Şurasının (WBC), Beynəlxalq Boks Federasiyasının (IBF) və Dünya Boks Təşkilatının (WBO) versiyaları üzrə müxtəlif çəki dərəcələrində keçmiş dünya çempionu Oskar de la Xoyya 2020-ci ildə ABŞ prezidenti vəzifəsinə seçkilərdə öz namizədliyini irəli sürmək imkanını nəzərdən keçirir.

De la Xoyya TMZ xəbər portalına müsahibəsində deyib: "Mən peşəkar boksçu olandan bəri milyonlarla insan məndən soruşub, nəyə görə mən seçkilərdə onları təmsil etməyə cəhd göstərməyim? Nəyə görə mən ayağa qalxıb öz səsimi ucaltmayım? Axı aşkar görünür ki, sən yalnız prezident olmaqla ən çox sayda insanlara yol tapa bilərsən".

Keçmiş boksçu nümunə kimi prezidentlik ambisiyalarını bəyan etmiş repçi Kanye Uestin adını çəkib. AZƏRTAC TASS agentliyinə istinadla keçmiş boksçunun bu sözlərini sitat gətirir: "Mən həqiqətən çox ciddi ovqatdayam və hesab edirəm ki, əgər Kanye Uest nə vaxtsa prezidentliyə namizədliyini irəli sürəcəyini söyləyə bilirsə, buna görə az qala bütün dünyanı cırnada bilirsə, mən nə üçün belə edə bilmərəm".

# "Qalatasaray" qış transfer hazırlıqlarına başlayıb






"Qalatasaray" qış transfer pəncərəsinin hazırlıqlarına indidən başlayıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, İstanbul klubu transfer pəncərəsi açılana qədər heyətinə qatmaq istədiyi futbolçularla ilkin protokol imzalamaq üçün hərəkətə keçib.

Əvvəlcə hücumdakı problemi həll etmək istəyən "Qalatasaray" Çinin "Tianjin Quanjian" klubunda forma geyinən Antoni Modeste ilə danışıqları davam etdirir. "Cim-Bom" fransalı forvardı yayda heyətinə qatmaq istəsə də, buna nail ola bilməmişdi. 30 yaşlı futbolçu "Köln"dən Çin klubuna 29 milyon avroya transfer olunmuşdu. "Qalatasaray"ın hədəfindəki digər futbolçu isə Qari Kahilldi. "Çelsi"dən ayrılacağı dəqiqləşən mərkəz müdafiəçisi ilə də danışıqlar başlayıb.

# Avro-2024-ə kim ev sahibliyi edəcək?




2024-cü ildə keçiriləcək Avropa çempionatına ev sahibliyi edəcək ölkənin adının açıqlanacağı vaxt müəyyənləşib. UEFA-nın saytında yer alan xəbərə görə, sentyabrın 27-i UEFA-nın İsveçrənin Nyon şəhərində keçiriləcək tədbirində namizədlər Türkiyə və Almaniya təqdimatlarını nümayiş etdirəcək. Həmin gün keçiriləcək səsvermədən sonra ev sahibi ölkənin adı açıqlanacaq.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**